## Azərbaycanda övladlığagötürmə qaydası dəyişib



**Azərbaycanda övladlığagötürmə qaydası dəyişib.**

Bu, Prezident İlham Əliyevin Ailə Məcəlləsinə dəyişikliyi təsdiqləməsi ilə mümkün olub.

Dəyişikliyə əsasən uşağın övladlığa götürülməsi barədə məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra həmin qətnamədən çıxarış üç gün müddətində hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın informasiya sisteminə ötürülür.



## Türkiyə, İsveç və Finlandiya üçtərəfli görüşü ləğv edilib

**Türkiyə, İsveç və Finlandiya arasında NATO-ya üzvlüklə bağlı üçtərəfli formatda görüş ləğv edilib.**

Məlumata görə, Ankaranın tələbi ilə üçtərəfli formatdakı görüş qeyri-müəyyən müddətə təxirə salınıb.



# Şuşaya səfər edənlərin sayı 17 mini keçib

### Ağdama isə ümumilikdə 3 994 sərnişin səfər edib

**Şuşa və Ağdama müntəzəm avtobus marşrutunun təşkilindən bir il ötür.**

Bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi xəbər verir.

Bu günə qədər müntəzəm avtobus marşrutları ilə Şuşa şəhərinə və Ağdam rayonuna 506 reys həyata keçirilib, 21 015 nəfər həmin yerləri ziyarət edib.

Məlumata görə, Şuşaya 17 021 sərnişin səfər edib. Onlardan 11 905 nəfər Bakı-Şuşa-Bakı, 5 116 nəfər isə Əhmədbəyli-Şuşa-Əhmədbəyli reysi ilə gedib.

*Ağdama isə ümumilikdə 3 994 sərnişin səfər edib. Onlardan 2 013 nəfər Bakı-Ağdam-Bakı,1 981 nəfər isə Bərdə-Ağdam-Bərdə reysi ilə gedib.*


№ 13 (5774), 2023-cü il

Qiyməti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 25 yanvar 2023-cü il (çərşənbə)




## Azərbaycan və İran XİN rəhbərləri görüşüblər

### Görüşdə regional və qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib

**Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov iranlı həmkarı Hüseyn Əmir-Abdullahianla görüşüb.**

Görüş Daşkənddə İqtisadi Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 26-cı iclası çərçivəsində baş tutub.

Bu barədə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov tviterdə məlumat yayıb.

Görüşdə regional və qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib.

## 100-dən çox müraciətə baxılıb

### Əfv Komissiyasının növbəti iclası keçirilib



**Dünən Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının iclası keçirilib.**

İclasda əfvlə bağlı 100-dən çox müraciətə baxılıb.

Əfv Komissiyanın növbəti iclasının yanvarın 31-də keçirilməsi nəzərdə tutulur.

Bununla da iclaslarda baxılan məsələlərin sayı 300-ü ötüb.

*Qeyd edək ki, komissiyanın son iclası yanvarın 17-də keçirilib. İclasda 100-dən artıq müraciətə baxılıb.*

*Ümumilikdə, komissiyanın 3 iclası ərzində əfvlə bağlı 300-dən artıq müraciətə baxılıb və müvafiq qərarlar verilib.*

# Bakı razılıq verməyib

### Avropa İttifaqı missiyası bölgəyə sülh gətirməyəcək



**Proseslər göstərir ki, regionda Qərb və Rusiya qarşıdurması güclənəcək**

**Avropa İttifaqı Şurası Ermənistanda mülki missiyasının yaradılması barədə razılığa gəlib.**

Deyilənə görə, missiyanın məqsədi Ermənistanın sərhədyanı rayonlarında sabitliyi təşviq etmək, yerli etimad yaratmaq və tərəflər arasında münasibətlərin normallaşdırılması səyləri üçün əlverişli mühit təmin etməkdir. Vurğulanıb ki, Aİ regionda davamlı sülhə nail olmaq üçün hər iki tərəflə yaxından işləməyə sadiqdir. Missiyanın müddətinin 2 il olacağı və Əməliyyat Qərargahının Ermənistanda yerləşəcəyi deyilib.

(səh.3)

# Ölkədə kəskin bahalaşma var

### Millət vəkili bildirib ki, Azərbaycanda qiymət siyasəti başlı-başına buraxılıb



**Dünən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. 17 məsələnin müzakirə olunduğu iclasda hökumət nümayəndələri də iştirak ediblər.**

Çıxış edən deputatlar bir sıra problemləri gündəmə gətirərək məmurların diqqətinə çatdırıblar.

Millət vəkili Əli Məsimli Azərbaycanda süni qiymət artımından və dərmanların kəskin bahalaşmasından danışıb. Deputat bildirib ki, süni surətdə qiymət artımının hər faizi əhaliyə ildə 500 milyon manatdan çox ziyan vurur: "Azərbaycanda qiymət artımı ixdal, iqtisadi inkişaf və inhisarçıların addımları olmaqla 3 mənbədən asılıdır.

(səh.4)



## Avtomobillərin hərəkəti müşahidə ediləcək

### Bəlkə bundan sonra sürücülərin də işi yüngülləşər

**Azərbaycanda bir sıra avtomobillərin hərəkəti müvafiq dövlət qurumu tərəfindən müşahidə ediləcək.**

Bununla bağlı Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında "Avtomobil nəqliyyatı haqqında" qanuna dəyişikliklər müzakirəyə çıxarılıb.

Dəyişikliyə əsasən, aşağıdakı hallardan biri və ya bir neçəsi olduqda iriqabaritli və ağırçəkili nəqliyyat vasitələri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) avtonəqliyyat vasitəsilə müşayiət edilməlidir...

(səh.4)

## 7 nəfər vəfat edib

### 59 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 59 yeni yoluxma faktı qeydə alınıb, 72 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 7 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 827 738 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 817 388 nəfər müalicə olunaraq sağalıb, 10 075 nəfər vəfat edib, aktiv xəstə sayı 275 nəfərdir.

*Ölkədə son sutka ərzində 2 908, hazırkı dövrədək isə 7 475 435 test aparılıb.*

## Xətai rayonunda qəzalı bina sökülləcək

### Sakinlərə kompensasiya veriləcək



**Bakı şəhəri, Xətai rayonu, 8 Noyabr prospekti 80 ünvanında yerləşən ikimərtəbəli qəzalı vəziyyətdə olan bina sökülləcək.**

APA xəbər verir ki, qəzalı binada 17 ailə məskunlaşıb.

Sakinlərə mənzillərin hər kvadrat metri üçün 1500 manat kompensasiya veriləcək.

Binanın yerində park salınacağı bildirilib.



## Müharibənin uzanması ehtimalı daha yüksəkdir

### Rusiya işğal etdiyi Ukrayna ərazilərini "uzunmüddətli strateji qazanc" kimi görür

(səh.3)



## Apteklərdə satılan siroplar təhlükəlidir

### Hindistan və İndoneziya istehsalı olan siroplardan istifadə zamanı uşaqlar arasında ölüm halları var

(səh.5)

# Vaşinqton narahatdır

## Bakı hərbi tətbiqləri gündəlikdən çıxarmayıb





Blinken, mümkündür ki, Azərbaycan tərəfini sakitləşdirmək üçün Prezident İlham Əliyevə zəng edib

**Yanvarın 23-də ABŞ Dövlət katibi Entoni Blinken Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib. Söhbət zamanı ABŞ dövlət katibi Azərbaycan ərazisində Laçın dəhlizində yaranmış vəziyyətlə bağlı narahatlığını bildirib. Entoni Blinken Vaşinqtonun Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılmasına sadiqliyini ifadə edib və sülh müqaviləsi üzrə danışıqları dəstəklədiyini bildirib.**

Prezident İlham Əliyev Laçın-Xankəndi yolunda hər hansı blokadanın olmadığını qeyd edərək, 2022-ci il 12 dekabr tarixindən etibarən 980-nə yaxın nəqliyyat vasitəsinin bu yoldan keçidinin təmin olunduğunu vurğulayıb. Onların 850-dən çoxunun Rusiya sülhməramlılarına, 120-dən artığının isə Beynəlxalq Qızıl Xaç Komitəsinə məxsus olduğunu deyib. Eyni zamanda Azərbaycan Prezidenti Qarabağda yaşayan 90-a yaxın xəstə və tibbi yardıma ehtiyacı olan şəxsin Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəsilə Ermənistana aparılmasının təmin edildiyini deyib. Prezident bildirib ki, bütün bunlar Laçın-Xankəndi yolunun Azərbaycan tərəfindən bağlanmadığını göstərir. Dövlət başçısı vurğulayıb ki, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində Azərbaycanın faydalı qazıntı yataqlarının qanunsuz istismarı dayandırılmalı və həmin ərazidə Azərbaycanın daimi monitorinq və təftiş aparmaq imkanı təmin edilməlidir. Ölkə rəhbəri Ermənistan tərəfindən 2021-ci ilin istehsalı olan minaların qanunsuz olaraq Laçın yolundan istifadə edilərək daşındığını bildirib. Bununla yanaşı, dövlət başçısı ölkəmizin sülh prosesinə və Ermənistan ilə Azərbaycan arasındakı münasibətlərin normallaşdırılmasına sadiq olduğunu qeyd edib. Bəyan edib ki, Ermənistan ilə Azərbaycan arasında imzalanacaq sülh müqaviləsi beynəlxalq hüququn norma və prinsipləri, Azərbaycanın təqdim etdiyi beş prinsip əsasında yalnız ikitərəfli münasibətlərin normallaşdırılmasını özündə ehtiva etməlidir. Prezident Azərbaycanın Qarabağ iqtisadi zonasında yaşayan mülki erməni əhalisinin hüquqlarının və təhlükəsizliyinin Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında təmin olunacağını qeyd edib.

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə açıqlamasında vurğulayıb ki, Rusiyanın Ruben Vardanyanı Qarabağda saxlamaq cəhdi, Qərbin Şuşa-Xankəndi yolundakı aksiyalara "humanitar fəlakət var" bağırtısı səpkisində münasibəti regiondakı etimad mühitini şübhə altına alır. Ekspertə görə, ABŞ dövlət katibi Entoni Blinken bu şübhələri öz dövlətinin məntiqi ilə dağıtmaq üçün yanvarın 23-də Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib:** "Diplomatik təmaslar etibarlı həll variantıdır, amma təhlükəsizlik qavrayışlarındakı fərqlər tənzimləmələri axsadır. Azərbaycan tərəfinin telefon danışığına dair yaydığı rəsmi informasiyada Blinken-Əliyev danışığının gərgin keçdiyini göstərən əlamət var. ABŞ ilə Azərbaycan insan hüquqlarına yanaşma məsələsində heç cür çəkici eyni nöqtəyə vurmur. Vaşinqton bu mövzunu qlobal ekspansiya siyasətinin mərkəzində tutur, Azərbaycan isə eyni məzmuna konstitusion hüquq kimi baxır. Yəni Azərbaycan Qarabağda yaşayan ermənilərin təhlükəsizliyini və hüquqlarını öz konstitusiyasının tələbləri çərçivəsində görürsə, ABŞ bunu fərqli meyarla dəyərləndirir. Belə fərqlər ABŞ ilə Azərbaycan münasibətlərindəki mübahisəli tezislərin başında dayanır. Lakin iki ölkənin tərəfdaşlığı və əməkdaşlığına zərbə vurmaq qabiliyyətinə yüksəlmir. Azərbaycanın Blinken-Əliyev danışığı haqqında yaydığı rəsmi məlumatda Prezidentin dövlət katibinə Laçın yolundakı vəziyyəti daha çox izah etdiyinə diqqət ayrılıb. ABŞ Dövlət Departamenti isə məlumatında Blinkenin "humanitar böhran riskləri" tezisini qabardıb və Laçın yolunun təcili olaraq nəqliyyat üçün açılmasını istədiyini önə çıxarıb".

**A.Kərimovun fikrincə, Dövlət Departamentinin məlumatında bir məqamın altından qırmızı xətt çəkilə bilər:** "Bu həmin cümlədir ki, Blinken dövlət başçısı İlham Əliyevi Ermənistanla münasibətlərin tənzimlənməsi üçün səyləri ikiqat artırmağa çağırıb. Həmin cümlənin özü də Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesində iplərin Azərbaycanın əlində olduğunun bəyan edilməsidir. ABŞ bilir ki, Azərbaycan sülh alətlərinin effektiv olması üçün həmin modeli Ermənistana təzyiqlərlə inkişaf etdirir. Azərbaycanın Ermənistana təzyiqləri ilə Rusiyanın İrəvana basqıları arasında fərqlər olsa da, ümumi yanaşmada Bakı ilə Moskvanın xətləri birləşir. Amerikanı sarsıdan Kremlin Rusiya-Ukrayna müharibəsi fonunda Cənubi Qafqazdakı yerindən bərk yapışmasıdır. Azərbaycan isə burada Rusiyaya müttəfiq nəzərilə baxmır. Sadəcə, təhlükəsizlik səbəbi ilə bəzi nüanslarda Moskva ilə razılaşmaların vacib olduğunu dərk edir. Bakının balanslı məntiqi Vaşinqtona münasibətdə də özünü göstərir. Yəni yeri gələndə Rusiyanın regiondakı ambisiyalarının səsini azaltmaq üçün Vaşinqtonla əməkdaşlıq ruhu yenilənir. Lakin Azərbaycanın tutduğu mövqe Rusiya ilə ABŞ-nin bir-birilə mübarizəsini zəiflətmir. Ən çətini isə onların Azərbaycanla yanaşı, Türkiyəni də öz tərəflərində tutmaq üçün atdıqları addımlardır".

**Siyasi şərhçinin qənaətincə, iki qütbün uclarında dayanan Moskva ilə Vaşinqton Türkiyəni bir-birinə qarşı rəqabətdə tarazlaşdırıcı güc kimi görürlər. Amma Ankara tərəzinin gözünü Rusiyaya doğru əyir:** "Regionun Azərbaycan-Türkiyə-Rusiya, yoxsa Azərbaycan-Türkiyə-Qərb üçbucağının içərisinə alınması mövzusunda ABŞ-nin narahatlıqları var. Türkiyə NATO üzvü olsa da, Rusiya ilə qurduğu əməkdaşlıq sferası ilə Ağ Ev regiondakı gücünü itirir. Ona görə ki, ABŞ-nin Cənubi Qafqazdakı hədəflərinə çatmasında Türkiyənin böyük rolu var. Hərçənd, Ankara Qərbin ona qarşı həmlələrindən dolayı ağırlığı Moskvanın üzərinə salır. Ağ Ev buna özünün regional qara günləri kimi baxır və həmin yanaşma Azərbaycanla münasibətlərə təsirsiz ötüşmür. Bütün bunlara rəğmən, ABŞ ilə Rusiyanın ulduzu Vardanyanın obrazında barışır. Rusiya Vardanyanı Qarabağda daha böyük layihənin icrası üçün "məşq etdirir". ABŞ isə Vardanyandan erməni hüquqlarının müdafiəsinə bəhanə tapmaq üçün istifadə edir. Azərbaycan Vardanyan rudimentinin (funksiyasını itirmiş orqan - red) siyasi yollarla kəsilib atılmasında maraqlıdır. Ancaq bu dəfə Ermənistanla sərhədlərin müəyyənləşməsi məsələsində problemlər ortaya çıxır ki, Bakı hərbi tətbiqləri gündəliyə daşıyır. Blinken, mümkündür ki, Azərbaycan tərəfini sakitləşdirmək üçün Prezident İlham Əliyevə zəng edib. Bakı isə artıq səbrinin hədlərini müəyyənləşdirir".

**İsmayıl Qocayev**

# Azərbaycanla Rusiya arasında terrorçuluqla mübarizədə əməkdaşlıq haqqında saziş təsdiqlənib



**Azərbaycanla Rusiya arasında terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində informasiya əməkdaşlığı haqqında saziş təsdiq edilib.**

Prezident İlham Əliyev "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında fiziki şəxslər tərəfindən nağd pul vəsaitinin və (və ya) pul alətlərinin transsərhəd hərəkəti zamanı cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılmasına (yuyulmasına) və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində informasiya əməkdaşlığı haqqında Saziş"in təsdiq edilməsi barədə Fərman imzalayıb.

Saziş 2022-ci il noyabrın 17-də Bakı şəhərində imzalanıb.

Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etməli, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Rusiya Federasiyası Hökumətinə bildiriş göndərməlidir.

# 100 nəfərlik Aİ missiyası yaxın həftələrdə işə başlayacaq

## Missiya Naxçıvan da daxil olmaqla Azərbaycan-Ermənistan sərhədini tam əhatə edəcək

**Ermənistanda yerləşdiriləcək Aİ-nin mülki missiyasını təxminən 100 nəfərdən ibarət olacaq.**

APA xəbər verir ki, bu barədə Aİ-nin mülki missiyasına Ermənistan İctimai Televiziyasının göndərdiyi yazılı sorğuya cavabında bildirilib.

Missiyanın yaxın həftələrdə fəaliyyətə başlayacağı vurğulanıb.

Aİ-nin mülki missiyasının Ermənistanın bir neçə şəhərində yerləşdiriləcəyi, Naxçıvan da daxil olmaqla Azərbaycan-Ermənistan dövlət sərhədini tam əhatə edəcəyi əlavə edilib.



*Qeyd edək ki, Ermənistanın istəyi əsasında Avropa İttifaqı Ermənistana, o cümlədən Ermənistan-Azərbaycan sərhədinə iki illik mülki missiya göndərilməsinə dair qərar qəbul edib.*

# Vardanyan Qarabağda əbədi qalmayacaq

## Burada Paşinyanın devrilməsi ssenarisi də mövcuddur




**Qarabağda özünü "dövlət naziri" elan etmiş milyarder Ruben Vardanyan BBC-nin "Hard Talk" proqramına müsahibə verib. Vardanyan müsahibəsi zamanı ona ünvanlanan bir çox suallara təxribatçı, yalan dolu cavablar verməyə çalışıb.**

Bir sıra suallar qarşısında susmaqla kifayətlənib. Bəzi məqamlarda isə özünü ifşa edib. Diqqətçəkən məqam Vardanyanın Rusiya-Ukrayna müharibəsi ilə bağlı suallardan yayınması oldu. O, Ukraynadakı hadisələr haqda suala cavab verməkdən yayınaraq yenə də ermənilərin "humanitar fəlakəti" haqqında cəfəng danışmağa başlayıb. Vardanyan ona ünvanlanmış suala "beynəlxalq ictimaiyyətin dəstəyini almaq imkanlarına mane olar" deyərək cavab verməkdən imtina edib.

**Politoloq Turan Rzayev "Şərq"ə deyib ki, Vardanyan öz cavabı ilə özünü ifşa etdi. Analitikin fikrincə, Vardanyanın ortaya qoyduğu bu mövqe onun Rusiyanın, Sarkisyan-Koçaryan qruplaşmasının layihəsi olmasını, Paşinyana müxalif olduğunu bir daha sübuta yetirdi:** "Vardanyan istəsə belə Ukrayna müharibəsi fonunda Rusiyanın törətdiyi cinayətləri, ya da işğalçılığı dilə gətirib nəsə deyə bilməz. Yaxşı bilir ki, belə bir addım onun sonu ola bilər. Rusiya Vardanyandan qərbmeyilli, anti-Rusiya görüşlü Paşinyan hakimiyyətini cəzalandırmaq vasitəsi kimi istifadə edir. Burada Paşinyanın devrilməsi ssenarisi də mövcuddur: "Bu mənada demək olar ki, Vardanyan Qarabağda əbədi qalmayacaq. Qarabağ onun üçün sadəcə tramplin rolu oynayır. Yəni Ermənistan siyasətinə qədəm qoymaq üçün o, ilk növbədə özünü doğrultmalı, ciddi nələrsə etməli, daha sonra Paşinyanla açıq mübarizə üçün Ermənistan siyasətinə gəlməlidir. Prinsip etibarilə Vardanyanın BBC-nin "Hard Talk" proqramına qatılması da yenə Ermənistan ictimaiyyətinə hesablanan bir addım idi. Onun bu tipli müsahibələrini, açıqlamalarını növbəti günlərdə də görə bilərik".

**İsmayıl**

# Ukrayna və Polşa aydınlıq gətirməlidir

## Ermənilərin korrupsiya yoluyla Kiyevdə hansısa məmurları ələ alaraq Ermənistana pilotsuz uçuş aparatları göndərməsi istisna deyil

**Ukrayna Erməniləri İttifaqının icraçı-direktoru Hovakim Arutyunyanın açıqlaması Azərbaycan mediasında geniş əks-səda doğurub. Arutyunyan deyib ki, Ukrayna erməniləri Ermənistana kəşfiyyat məqsədilə istifadə olunan pilotsuz uçuş aparatları göndərib. O, PUA-ları təyyarələrlə göndərənləri tanıdığını söyləyib:**

"Bu hərbi texnika Varşava-İrəvan reysi ilə aparılır. Buradan, Ukraynadan ordumuza çoxlu kömək göndərilir. Təsəvvür edin, bizdə müharibə var. Amma bizim ermənilər Ermənistana kömək edə bilir, Ukrayna tərəfindən vuruşan hərbçilərmiz Ermənistandakı qardaşlarına pilotsuz uçuş aparatları göndərə bilirlər".



**Rusiya ilə müharibə aparan Ukraynadan Ermənistana pilotsuz uçuş aparatlarının göndərilməsi məsələsini şərh edən "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, hazırda Ukraynanın daha çox pilotsuz uçuş aparatlarına ehtiyacı var. Ekspert bildirib ki, Ukraynanın bu aparatları əsas tədarük etdiyi ölkə Türkiyədir:**

"İki ölkə arasında pilotsuz uçuş aparatlarının birgə istehsalıyla bağlı razılaşma var. Ukrayna ABŞ-dən da pilotsuz uçuş aparatları əldə edir. Ukrayna Prezidenti Volodimir Zelenski bütün açıqlamalarında Qərb ölkələrindən hərbi texnika istəyir. Çünki Ukraynanın hərbi texnikası və döyüş sursatları azalır, pilotsuz uçuş aparatlarının bir hissəsi döyüşdə neytrallaşdırılır. Bunların yeri doldurulmalıdır. Digər tərəfdən Ukraynanın Azərbaycanla tərəfdaşlıq münasibətləri var. Kiyev Ermənistanı Rusiyanın strateji müttəfiqi kimi qiymətləndirir. Bu baxımdan Ermənistana silah və ya pilotsuz uçuş aparatları göndərmək Ukraynanın milli və təhlükəsizlik maraqlarına ziddir. Buna baxmayaraq, Ukrayna Erməniləri İttifaqının icraçı-direktorunun açıqlaması araşdırılmalıdır. Ukraynada müharibə başlayana qədər təxminən 500 min erməni yaşayırdı. Ukraynada yaşayan bir qrup erməni böyük maliyyə imkanlarına malik idi. Həmin ermənilərin korrupsiya yoluyla Kiyevdə hansısa məmurları ələ alaraq Ermənistana pilotsuz uçuş aparatları göndərməsi istisna deyil. Ukraynadakı ermənilərin ən tanınmış nümayəndəsi uzun illər daxili işlər naziri işləmiş Arsen Avakovdur. O, hazırda dövlət vəzifəsi tutmasa da, əlaqələri genişdir.

Ukraynadan pilotsuz uçuş aparatlarının Ermənistana çatdırılması üçün bir neçə mərhələ keçilməlidir. Birinci mərhələdə həmin aparatlar anbarlardan oğurlanmalıdır. İkinci mərhələdə oğurlanan aparatlar gizli yolla Ukrayna-Polşa sərhədindən keçirilməlidir. Üçüncü mərhələdə isə oğurlanan və Polşaya gizli yollarla çatdırılan aparatlar yenə gizli yolla Varşava-İrəvan təyyarə reyslərinə yüklənməlidir".

**E.Şahinoğlunun sözlərinə görə, Azərbaycan Xarici İşlər Nazirliyi xətti ilə Kiyevə və Varşavaya müraciət edilməli, Ukrayna və Polşa rəsmilərinin məsələyə münasibəti öyrənilməlidir:** "Ukrayna kimi Polşa da Azərbaycanın tərəfdaşıdır və Ermənistana silah göndərmək Polşanın da milli və təhlükəsizlik maraqlarına ziddir.

Ukrayna Erməniləri İttifaqının icraçı-direktorunun "biz Polşa üzərindən Ermənistana silah göndəririk" açıqlaması informasiya müharibəsinin tərkib hissəsi də ola bilər. Məqsəd Azərbaycan tərəfdaşları olan Ukrayna və Polşa ilə münasibətlərini gərginləşdirməkdir. Ukrayna erməniləri hipotetik olaraq Ermənistana pilotsuz uçuş aparatları göndərirlərsə, məntiqlə bunu açıqlamamalıdırlar. Çünki bu açıqlamadan sonra Ukraynadan Ermənistana dronların çatdırılması ya mümkün olmayacaq, ya da xeyli çətinləşəcək. Yəni "biz Ermənistana pilotsuz uçuş aparatları göndəririk" açıqlamasının ermənilərə zərəri faydasından çoxdur. Ermənistan hakimiyyətinin, Qarabağ separatçılarının və dünyadakı erməni lobbisinin məqsədi Azərbaycanın müxtəlif dövlətlərlə münasibətlərini gərginləşdirməkdir. Bunun qarşısını yalnız fəal diplomatiya və təxribat xarakterli məlumatların vaxtında dəqiqləşdirilməsi ilə almaq mümkündür".

**İsmayıl Qocayev**

# Deputat XİN əməkdaşlarını tənqid edib

## "Qeyri-maddi mədəni irsin qorunması haqqında" qanun layihəsinin adını düzgün yazmaq lazımdır"



**"Bizim dilimizi məhv edənlərdən biri beynəlxalq konvensiyalardır. Qeyri-maddi mədəni irs sözü də bu sıradadır". Bunu Milli Məclisin Mədəniyyət komitəsinin iclasında deputat Nizami Cəfərov bildirib. Parlament üzvü deyib ki, maddi mədəniyyət sözü daim işlədilib:**

"Şeir də mənəvidir. Qeyri-maddi nədir? Bu, kənardan gəlir. Bu, nə mənəvi, nə maddi deyil. Nədirsə, gərək yazılsın. Məsələn, lavaş və dolma qeyri-maddidirsə, gərək bunu sübut edək. Yaxud köçürmək əvəzinə təxliyə sözü işlədilir. Təxliyə nədir? Mən dilçiliklə məşğulam, amma bilmirəm bu nədir. Bunun izahını vermək lazımdır. UNESCO-da Novruz bayramı qeyri-maddi mədəni irs kimi qeydiyyatdan keçib. Bu necə qeyri-maddi mədəni irs ola bilər? Xarici İşlər Nazirliyi ilə də müzakirələr aparmaq lazımdır, amma nazirlikdə Azərbaycan dilini bilən bir adam yoxdur".

**Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva qeyri-maddi mədəni irs sözü ilə bağlı müzakirə aparılmasını dəstəkləyib:** "Mədəniyyət Komitəsi bunu müvafiq qurumlarla müzakirə edə və bu ifadə dəyişə bilər".

**İsmayıl**



# Bakı razılıq verməyib

## Avropa İttifaqı missiyası bölgəyə sülh gətirməyəcək

**Avropa İttifaqı Şurası Ermənistanda mülki missiyasının yaradılması barədə razılığa gəlib. Deyilənə görə, missiyanın məqsədi Ermənistanın sərhədyanı rayonlarında sabitliyi təşviq etmək, yerli etimad yaratmaq və tərəflər arasında münasibətlərin normallaşdırılması səyləri üçün əlverişli mühit təmin etməkdir. Vurğulanıb ki, Aİ regionda davamlı sülhə nail olmaq üçün hər iki tərəflə yaxından işləməyə sadiqdir.**

Missiyanın müddətinin 2 il olacağı və Əməliyyat Qərargahının Ermənistanda yerləşəcəyi deyilib. Aİ-nin Xarici siyasət və təhlükəsizlik məsələləri üzrə Ali Nümayəndəsi Cozep Borrell qeyd edib ki, Ermənistanda missiyasının yaradılması təşkilatın Cənubi Qafqazdakı fəaliyyətində yeni mərhələyə start verir: ”Aİ gərginliyin azaldılması səylərini dəstəkləməyə davam edəcək”. Qeyd edək ki, bir müddət öncə Aİ Ermənistan-Azərbaycan sərhədinə iki aylıq missiya yollamışdı. Bəzi ekspertlər ”mülki missiyası”nın 200 nəfərlik heyətinin keçmiş hərbçilərdən təşkil olunduğunu və Ermənistana Qərb hərbi kontingentin yerləşdirilməsinə hazırlıq görüldüyünü iddia ediblər. Rəsmi Bakı isə hesab edir ki, Aİ missiyasının mövcudluğunun hazırkı dialoq mexanizmlərinə qarşı sui-istifadəsi təhlükəlidir. Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda bildirilib ki, Aİ missiyası Azərbaycanın legitim maraqlarını nəzərə almalıdır: ”Aİ-nin missiyasının mövcudluğu Ermənistan tərəfindən normallaşma prosesini pozmaq cəhdlərinin artması ilə üst-üstə düşdü. Beləliklə, Aİ missiyasının normallaşma gündəliyinin irəli aparılmasına töhfə verəcəyi ilə bağlı ilkin gözləntilər sarsıldı”.

Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva da bildirib ki, Aİ-nin missiya göndərməsi Ermənistanın öhdəliklərini yerinə yetirməkdən yayınması üçün bəhanə olmamalıdır. İki illik ”mülki missiya” qərarı Rusiyada da ciddi narahatlıqla qarşılanıb. Rusiya rəsmi dairələri ilə yanaşı, ekspertlər və rus mediası da olaya kəskin reaksiya sərgiləyirlər.

> Proseslər göstərir ki, regionda Qərb və Rusiya qarşıdurması güclənəcək

**Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin rəhbəri Samir Hümbətov ”Şərq”ə açıqlamasında bildirib ki, Avropa İttifaqı missiyasının Ermənistan-Azərbaycan sərhədinə 2 illik müddətə gəlməsi beynəlxalq hüququn kobud şəkildə tapdanmasıdır.** Analitik deyib ki, beynəlxalq hüququn əsas müddəaları ondan ibarətdir ki, Aİ Azərbaycan-Ermənistan sərhədinə gəlmək istəyirsə, rəsmi Bakının razılığı mütləqdir. Ancaq Azərbaycan belə bir missiyanın bölgəyə gəlməsinə razılıq verməyib. Burdan belə çıxır ki, Avropa İttifaqı Azərbaycanla da əlaqələri pozmaqda maraqlıdır. Digər yandan Rusiya Ermənistanda Qərbin olmasını istəmir. Bütün gücü ilə çalışır ki, bunun qarşısını alsın. Ancaq indiki Ermənistan rəhbərliyi daha çox Qərblə əməkdaşlığa üstünlük verir. Hesab edirəm ki, yaxın dövr ərzində Aİ, daha doğrusu, Qərb və Rusiya arasında ciddi mübarizənin başlayacağı gözlənilləndir. Qərbin missiya göndərməkdə məqsədlərindən biri, həqiqətən də, tərəflər arasında sülh danışıqlarına gedən yolu açmaq ola bilər. Ancaq Qərb ölkələrinin Cənubi Qafqazla bağlı öz maraqlarının olduğu şübhəsizdir. Ona görə də bölgədə öz maraqlarına uyğun addım atmağa çalışırlar. Ermənistan hökumətini də buna təhrik edirlər”.

*S.Hümbətov hesab edir ki, missiya məsələsində ortaya çıxacaq əsas problemlərdən biri sərhədlərin demarkasiya və delimitasiya prosesi ilə bağlıdır:* ”Sərhəddə bəzi ərazilər mübahisəlidir və dəqiq müəyyən edilməsi üçün tarixi xəritələrin ortaya qoyulması vacibdir. İstinad ediləcək xəritələrin də əksəriyyəti Rusiya Müdafiə Nazirliyinin arxivlərindədir. Moskvanın həmin xəritələri vaxtında üzə çıxarıb-çıxarmayacağı da sual doğurur. Əgər Aİ missiyası sərhədə gələrsə, Rusiya xəritələri verməyə bilər. Yəni missiya istənilən halda vəziyyətin gərginləşməsinə xidmət edəcək. Düşünürəm ki, əvvəlki 2 aylıq missiya bir nəbz yoxlanışı idi. Rusiya və Azərbaycanın reaksiyasını ölçən Qərb dövlətləri növbəti addımı atmaq barədə qərar veriblər. Halbuki rəsmi Bakı dəvətsiz missiya ilə bağlı öz konkret mövqeyini dəfələrlə bəyan edib. Düzdür, Moskva etirazını bildirsə də, çox dərinə getmədi. Ona görə də gərginlik yeni mərhələyə qədəm qoymaqdadır. Aİ missiyasının əsas təşəbbüskarı Fransadır. Fransa İkinci Qarabağ savaşından sonra Cənubi Qafqazda itirdiyi mövqeyini və aktivliyi bərpa etməyə çalışır. Fransa başda olmaqla Qərb ölkələrinin bölgəmizdə gərginlik yaratmaq cəhdlərinin qarşısı mütləq alınmalıdır. Bununla bağlı ortaya prinsipial mövqeyin qoyulacağını düşünürük”.

**İsmayıl Qocayev**

# Ölkədə influenza virusu kəskin yayılıb

## 5 gündən çox davam edən yüksək temperatur artıq ağırlaşmadan xəbər verir

**Son zamanlarda uşaqlar və böyüklər arasında kəskin virus yayılıb. Pandemiyadan sonra bu tip virusların sayında artım müşahidə edilir. Bu viruslar əsasən qış aylarında daha çox müşahidə edilir.**

**Maraqlıdır, görəsən, uşaqlar bu viruslardan necə qoruna bilərlər?**



> “Bu virus və bakteriyalar isti, rütubətli şəraitdə yaşamağı sevirlər, təmiz, soyuq havada isə tez məhv olurlar. Ona görə otağın havasını gün ərzində bir neçə dəfə dəyişmək və uşağı havaya çıxartmaq lazımdır”

Mövzu ilə bağlı pediatr Qoşqar İsmayılov Lent.az-a açıqlamasında bildirib ki, son iki həftə ərzində yayılan viruslar influenza viruslarıdır.

Onun sözlərinə görə, bu viruslar uşaqlarda və böyüklərdə yüksək hərarət, boğaz ağrısı və angina formasında müşahidə edilir. Bu cür hallarda mütləq şəkildə həkimə müraciət edilməlidir. Həkimin müayinəsindən sonra müalicəyə başlamaq lazımdır. Profilaktiki olaraq təbii ki, sağlam qidalanmaya üstünlük verilməli, yuxu rejimi normallaşdırılmalı və qapalı məkanlarda çox qalmamalıyıq. Əgər bağçada, məktəbdə xəstə olan və ya virusa yoluxan varsa, uşaqları məktəbə və bağçaya göndərməməliyik”.

**Pediatr Səbinə Abbasquluzadə isə “Şərq”ə açıqlamasında bildirib ki, koronavirusla əlaqədar qapanma dövründə qrip virusunun daha aqressiv ştammları yaranaraq hazırda xəstəliklərin daha ağır keçməsinə səbəb olur:** “COVID-19 pandemiyası dönəmində hamı evə qapandı, steril həyat tərzi keçirdi. Birdən-birə o steril həyatdan yenə əvvəlki həyat rejimimizə dönməyimizlə əlaqədar olaraq tənəffüs yolunun yoluxucu xəstəliklərinə daha çox məruz qalırıq.

Əslində isə qrip virusu və onun törətdiyi xəstəliklər həmişə olub.

Tibbi adı influenza olan qrip virusu tərəfindən törədilən bu xəstəlik hava-damcı yolu ilə yoluxur, yəni xəstə insan danışdıqda, öskürdükdə, asqırdıqda asanlıqla ətrafdakı sağlam şəxsləri yoluxdurur.

Əsas əlamətləri ani başlayan yüksək temperatur, baş ağrısı, boğaz ağrısı, əzələ ağrıları, halsızlıq, uzun sürən öskürək, burun axıntısı, qusma, ishaldır.

5 gündən çox davam edən yüksək temperatur isə artıq ağırlaşmadan xəbər verir.

Kəskin otit, pnevmoniya, inaq, febril qıcolma, ensefalit kimi təhlükələrə yol açır”.

Xəstəlikdən sağalmamış, ya da sağalandan qısa müddət sonra təkrar yoluxma səbəblərinə gəldikdə isə pediatr bunun havasızlıqdan olduğunu deyib: “Virus və bakteriyalar isti, rütubətli şəraitdə yaşamağı sevirlər, təmiz, soyuq havada isə tez məhv olurlar. Ona görə otağın havasını gün ərzində bir neçə dəfə dəyişmək və uşağı havaya çıxartmaq lazımdır. Otağın temperaturunu 22 dərəcədə saxlamaq lazımdır”.

**S.Abbasquluzadə həmçinin qeyd edib ki, qətiyyən həkim məsləhəti olmadan özbaşına antibiotik müalicəsinə başlamaq olmaz. Çünki bu, virus infeksiyasıdır, antibiotik isə bakterial infeksiya zamanı verilir. Antibiotik o zaman verilə bilər ki, bakterial ağırlaşma olsun:** “Həkim məsləhəti olmadan özbaşına antibiotik vermək olmaz, onun dozası dərmanın içlik vərəqəsindəki kimi deyil, həkim tərəfindən xəstəliyin gedişatı və uşağın çəkisinə görə hesablanır.

Yersiz verilən antibiotiklərə qarşı uşaqda davamlılıq yaranır və növbəti dəfə xəstələnəndə artıq o antibiotik kömək etmir və ondan “güclüsünü” yazmaq məcburiyyətində qalırıq”.

**Şəymən**

# Kitablarımızı Hindistanda oxuyacaqlar

## Şahbaz Xuduoğlu memorandum imzalayıb




> “Razılaşmaya görə, 15 kitab bizim dildən tamilcəyə, 15 kitab isə tamilcədən bizim dilə tərcümə edilməlidir”

**”Qanun” Nəşrlər Evinin rəhbəri Şahbaz Xuduoğlu Hindistanın Chennai Beynəlxalq Kitab Sərgisində iştirak edib. Sərgi ilə bağlı təəssüratlarını ”Şərq”lə bölüşən naşir sərgiyə Hindistan dövləti tərəfindən dəvət olunduğunu və bütün gediş-gəliş xərclərinin də məhz onlar tərəfindən ödəndiyini vurğulayıb:**

”Hindistanın cənubunda yerləşən Chennai Tamul Nadu əyalətinin mərkəzidir. Buradakı əhali hind yox, tamil dilində danışır. Fərqli mədəniyyətə sahib olan bu əyalətdə demək olar ki hər il bu cür sərgilər keçirilir. Beynəlxalq Kitab Sərgisinin məhz Chennaidə keçirilməsinin məqsədi tamil dilli ədəbiyyatın beynəlxalq status almasına nail olmaqdır. Sərgidə 30 ölkənin ədəbiyyat nümayəndələri iştirak edirdi. Azərbaycanı isə mən təmsil edirdim. Kifayət qədər böyük sərgi idi. Bu cür sərgilər adətən bir həftə, 10 gün davam edir. Sərginin bir milyon yarım ziyarətçisi vardı. Dövlət tərəfindən təşkil olunduğu üçün orada iştirak edən nəşriyyatlar pul ödəmir. Hər bir nəşriyyatın istədiyi qədər yer götürüb stend qoymaq haqqı var. Chennai Beynəlxalq Kitab Sərgisi həm də el şənliyi əhval-ruhiyyəsində bir mərasimdir”.

Azərbaycanın təmsilçisi olaraq sərgi çərçivəsində bir sıra görüşlər keçirdiyini vurğulayan Ş.Xuduoğlu görüşdə 30 ikitərəfli memorandum imzalayıb: ”Razılaşmaya görə, 15 kitab bizim dildən tamilcəyə, 15 kitab isə tamilcədən bizim dilə tərcümə edilməlidir. İmzalanan memorandumlar sərginin Xüsusi Komitəsi tərəfindən dəyərləndiriləndən sonra tamilcə nəşrinə dəstək veriləcəkdir. İmza mərasiminə Tamil Nadunun Baş naziri M.K.Stalin də qatılıb, xeyir-dua verdi”.

Beynəlxalq kitab sərgilərinin əhəmiyyətindən söz açan naşir Chennaidə keçirilən sərginin böyük bir zövqlə təşkil olunduğunu deyib: ”Bir tərəfdə beynəlxalq sərgi üçün nəzərdə tutulan kitab stendləri, digər tərəfdə isə nəşriyyatlar öz kitablarını satırdılar. Ortadakı böyük səhnədə isə yerli yazarlar öz əsərlərini oxuyurlar. Kifayət qədər də dinləyici sayı vardı. Düzü, bu mənim üçün heyranedici bir mənzərə idi. Arzu edərdim ki, Azərbaycanda da bu cür kitab sərgiləri təşkil edilsin”.

**Ş.Xuduoğlu həmçinin sərgiyə apardığı əsərlərin bəzilərinin tam ingiliscə, bəzilərinin isə xülasə halında olduğunu əlavə edib:** ”Təqdim etdiyim müəlliflər arasında Kamal Abdulla, Çingiz Abdullayev, İlkin Rüstəmzadə, Rəşad Səfər, Şamxal Həsənov, Pərviz, Şərif Ağayar, Rasim Qaraca, Məqsəd Nur, Seymur Baycanın da əsərləri var. Konkret olaraq hansı əsərlərin tamil dilinə çevrilib çap olunmasına gəldikdə isə bu, oradakı nəşriyyatların seçimi olacaq. Sərgiyə apardığım kitabların hamısı ”Qanun”un nəşrləridir”.

Sərgidə hansı müəllifin daha çox diqqət çəkməsinə gəldikdə isə Ş.Xuduoğlu deyib ki, əslinə qalsa, yerli əhali bizim kitablarda nədən bəhs etdiyini anlamır. Ona görə də konkret filan müəllifin kitablarına maraq göstərdilər demək çətindir. Amma mən əlimdən gəldiyi qədər apardığım kitabları, heç olmasa, nəşriyyatlara verməyə çalışdım”.

**Şəymən**



# Müharibənin uzanması ehtimalı daha yüksəkdir

## Rusiya işğal etdiyi Ukrayna ərazilərini “uzunmüddətli strateji qazanc” kimi görür

**Luqansk istiqamətində son 10 gündə rusların şəxsi heyətində azalma müşahidə olunur. Bu barədə Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahı məlumat yayıb. Məlumata görə, ruslar çağırışçıları döyüşə atırlar, peşəkar hərbçilər isə arxa cəbhədə qalır.**

Bildirilib ki, rus hərbçilərin ailələri Luqansk şəhərindən Rusiya ərazisinə təxliyə olunur. Ukrayna Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsinin rəis müavini general-mayor Vadim Skibitski deyib ki, Rusiya 500 min insanı səfərbərliyə çağırarsa, onların təminatında problemlər yaranacaq: ”Rusiyanın ərazi qoşunlarının birlik və birləşmələrinin sayı bizə məlumdur. Ən əsası isə Baş Qərargahımızda belə məlumatlar var və hərəkətlərimizi planlaşdırarkən bunu nəzərə alırıq. Biz bu 300 min, 500 min rəqəmləri ilə xalqımızı qorxutmamalıyıq”. O qeyd edib ki, ruslar döyüşmək istəmir və evlərinə qayıtmağa çalışırlar.

**Gerasimov: ”Rusiya tarixində belə döyüşlər olmayıb”**

Rusiyanın Baş Qərargah rəisi, Ukraynadakı qoşunların komandanı Valeri Gerasimov deyib ki, Rusiya ordusu Ukraynada praktiki olaraq kollektiv Qərbə qarşı döyüşür: ”Müasir Rusiya tarixində bu səviyyədə və intensivlikdə hərbi əməliyyatlar olmayıb”. Böyük Britaniyanın ”The Times” nəşri Rusiyanın 500 min nəfərlik səfərbərlik planı hazırladığını deyib. Nəşr bildirib ki, qərar bir neçə gün ərzində qəbul olunacaq: ”Orduya çağırılanlar yeni genişmiqyaslı hücum üçün cəbhəyə göndəriləcəklər”. Məlumata görə, Rusiya aprelə qədər Ukraynaya qarşı yeni genişmiqyaslı hücum həyata keçirə bilər. İddia edilib ki, Rusiya 2 milyonluq ordu yaratmağa çalışır və bunun üçün növbəti dəfə səfərbərlik elan olunacaq.

**Pentaqondan etiraf: Ukrayna böyük itkilər verir**

Pentaqonun yüksək çinli məmuru deyib ki, Ukrayna qoşunları Rusiya ordusu ilə döyüşlərdə böyük itkilər verir: ”Ukrayna da böyük itkilərlə üzləşib. Şiddətli döyüşlər gedir. Əməliyyat təhlükəsizliyi baxımından mən konkret nə isə deyə bilmərəm”.

Almaniyanın müdafiə naziri Boris Pistorius deyib ki, NATO Ukrayna-Rusiya müharibəsində tərəf olmamalıdır: ”Putinin Ukraynaya qarşı imperialistik, qəddar və əsassız müharibəyə başlamasından 11 ay keçir. Biz razılaşırıq ki, NATO bu müharibədə tərəf olmayacaq və kənarda qalmalıdır. Lakin biz Ukraynanı dəstəkləməliyik və biz bunu edirik”.

> Hər iki tərəf hazırda dayanmağı verdikləri qurbanların ruhuna xəyanət kimi dəyərləndirirlər

**ABŞ ”Vaqner”i təqib edəcək**

ABŞ Dövlət Departamentinin sözçüsü Ned Prays deyib ki, Vaşinqton ”Vaqner” qrupunun sabitliyi pozmasının qarşısını almaq üçün əlində olan mövcud alətlərlə onu təqib edəcək: ”Biz ”Vaqner” qrupunun həm Ukraynada, həm də daha geniş kontekstdə sabitliyi pozan təsirinə qarşı çıxmaq üçün onu izləyəcəyik. Bunun üçün isə bütün lazımi vasitələrdən istifadə edəcəyik”. Prays qeyd edib ki, ABŞ müttəfiqləri və tərəfdaşları ilə birlikdə Rusiyaya təcavüzdə kömək edən hər kəsi, o cümlədən özəl hərbi şirkətin üzvlərini təqib edəcək.

Çinin ”Sina” portalında yayımlanan məqalədə qeyd olunub ki, Ukrayna Qərb ölkələrindən tam asılı olduğu üçün məğlubiyyətini etiraf etməyə borcludur: ”Rusiyanın hərbi-sənaye kompleksinin qurulmasını davam etdirmək və Ukrayna ilə uzun müddət davam edə biləcək münaqişədən çıxmaq üçün kifayət qədər resursları var. Rusiyada silah və sursat çatışmazlığı mümkün deyil. Ukrayna müttəfiqlərin dəstəyi olmadan cəbhə xəttini saxlaya bilməyəcək. Bu, Ukraynanın ”dünya xəritəsindən itmək” riskinə səbəb ola bilər”.

**”Ukrayna və Rusiya ”bezmişlik” mərhələsinə çatmayıb”**

**Politoloq Araz Aslanlı deyib ki, Rusiyanın Ukrayna ərazilərini işğalı ilə başlayan müharibənin davam etməsi və dağıdıcı təsirlərini artırması ehtimalı yüksək olaraq qalır:** ”Bunu ABŞ ordusunun Baş Qərargah rəisi Mark Milli son açıqlamasında qeyd etdi. Dedi ki, hərbi nöqteyinəzərdən bu il üçün Rusiya qüvvələrini bütün Ukraynadan və işğal olunmuş ərazilərindən hərbi yolla çıxarmaq çox çətin olacaq. Milli əlavə edib ki, ”tarixdəki bir çox müharibə kimi bu müharibə də danışıqlar masasında bitəcək”. Müharibənin 2024-cü ilə keçməsi mütləq variant deyil. Tərəflərdən birinin, xüsusilə Rusiyanın daxilində baş verə biləcək hansısa proses, Ukraynanı dəstəkləyən qüvvələrin xarici siyasətdə qarşılaşa biləcəyi daha ciddi problem ”danışıqlar masası” variantını gücləndirə bilər. Ya da Ukraynadakı müharibənin şiddətini azaldar. Amma hazırkı şərtlərdə müharibənin uzanması ehtimalı bir sıra səbəblərə görə daha yüksəkdir. Rusiya işğal etdiyi Ukrayna ərazilərini ”uzunmüddətli strateji qazanc” kimi görür. Ukrayna təbii olaraq öz ərazilərini işğaldan azad etmək istəyir. Hər iki tərəf hazırda dayanmağı verdikləri qurbanların ruhuna xəyanət kimi dəyərləndirirlər. ABŞ bu prosesi Ruriyanın enerjisini udan, avropalıları təzyiq altında saxlayan və Amerikaya yaxınlaşmağa məcbur edən amil kimi xarakterizə edir. Ukrayna və Rusiya münaqişələrin dayanması üçün vacib olan ”bezmişlik” mərhələsinə çatmayıblar. Başqa məqamlar da mövcuddur, amma qeyd edilənlər daha təsirlidir”.

**İsmayıl Qocayev**

Vətənin general oğlu



# Zəfərə gedən yol

## Heydər Əliyev hakimiyyətə gələn gündən ordu quruculuğuna prioritet istiqamət verdi

**Ulu Öndər Heydər Əliyevin Azərbaycanın sosial-iqtisadi, siyasi, hərbi və mədəni yüksəlişi üçün həyata keçirdiyi tədbirlər, milli şüurun oyanışı istiqamətində gördüyü böyük işlər olmasaydı, bu gün Azərbaycanın müstəqil xəttə malik suveren dövlət kimi mövcudluğundan danışa bilməzdik. Milli maraqları daim hər şeydən üstün tutan Ulu Öndər Azərbaycan dövlətçiliyinin dönməzliyini və əbədiliyini təmin etdi. Bununla yanaşı, Azərbaycanın qarşılaşa biləcəyi çətinlikləri əvvəlcədən duyan Ümummilli Lider zamanı qabaqlayaraq, ölkənin davamlı inkişafı, dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsi istiqamətində böyük işlər gördü.**

Azərbaycanın strateji maraqlarının təmin edilməsi üçün zəruri və qəti addımlar atdı. Məlumdur ki, ordu dövlətin suverenliyi və ərazi bütövlüyünü təmin etmək üçün əsas qüvvə olaraq dövlət quruculuğunun tərkib hissələrindən biridir. Silahlı Qüvvələrimizin mövcudluğu və şərəfli tarixi Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Çünki bugünkü Azərbaycan Ordusunun qurulması, inkişafı, möhkəmlənməsi Heydər Əliyevin yorulmaz fəaliyyətinin, dövlətçilik təfəkkürünün, siyasi uzaqgörənliyinin və təşkilatçılıq qabiliyyətinin məntiqi nəticəsidir. Böyük şəxsiyyətin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətlərindən biri də müasir Azərbaycan Ordusunun memarı olmasıdır. Heydər Əliyevi daim yaşadacaq amillərdən biri də onun ordu quruculuğu sahəsində hər zaman öyrənilməsinə ehtiyac olacaq, izləniləcək, nəsillərdən-nəsillərə ötürüləcək zəngin irsidir. Müasir Azərbaycan dövlət müstəqilliyinin bərpasına 1991-ci ildə nail olsa da, vahid komandanlığa əsaslanan nizami və mütəşəkkil ordunun yaradılması Ümummilli Liderin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra mümkün oldu. Hakimiyyətdə olduğu illərdə Ümummilli Lider Azərbaycan Ordusunu və onun formalaşması prosesini diqqət mərkəzində saxladı. Milli ordu quruculuğu sahəsində Heydər Əliyev irsinin təməli sovetlər dövründə qoyulub. Sovet illərində Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi vaxtlar hərbi xidmətə münasibətdə yeni bir baxış formalaşdırıldı. Bu istiqamətdə əməli-təşkilati işlərə vüsət verildi. Əgər Heydər Əliyevə qədər Azərbaycan gənclərinin hərbi xidmətə cəlb edilməsinə onların iki illik hərbi mükəlləfiyyəti kimi baxılırdısa, Heydər Əliyev respublikaya rəhbərlik etdiyi illərdə bu baxışları dəyişməyə müvəffəq oldu. Bunu bir ümumxalq vəzifəsi kimi aktuallaşdırdı. Yeni şəraitdə hərbi xidmət mürəkkəb hərbi ixtisasların öyrənilməsi məktəbi kimi qəbul edildi. Hərbi xidmətə hazırlıq işlərinə diqqət artırıldı, gənclərin xidmətə yola salınması xalqın və dövlətin qayğısı ilə əhatə olundu. Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi birinci dövrdə Azərbaycanda hərbi-təşkilati işlər bir neçə istiqamətdə aparılırdı. Bu istiqamətlərdən biri Azərbaycan gənclərinin hərbi xidmətə hazırlanması, onların xüsusi ixtisaslı hərbi hissələrə göndərilməsinə nail olunması idi. Hər il Azərbaycandan təxminən 60 min gənc hərbi xidmətə çağırılsa da, onların çox az hissəsi xüsusi ixtisaslar öyrədən hərbi hissələrə yola salınırdı. Gənclərin böyük əksəriyyəti isə tikinti və xidmət hərbi hissələrinə göndərilirdi. Belə bir vəziyyətin mövcudluğunu Heydər Əliyev narahatlıqla qarşılayırdı və o, şübhə etmirdi ki, bununla azərbaycanlılar hərb işindən yadırğadılır. Bu narahatlığın aradan qaldırılması üçün Azərbaycanda gənclərin hərbi xidmətə hazırlanmasına yeni tələblər irəli sürüldü. İlk növbədə, respublika məktəblərində rus dilinin tədrisinə diqqət artırıldı, rus dili müəllimləri hazırlayan ayrıca bir institut yaradıldı. Azərbaycan Dövlət Pedaqoji İnstitutu nəzdində ibtidai hərbi hazırlıq müəllimləri hazırlayan fakültə açıldı. Hərbi vətənpərvərlik tərbiyəsi gücləndirildi. Məktəblilər arasında hərbi oyunların keçirilməsi davamlı xarakter aldı, respublikadakı hərbi komissarlıq orqanlarının fəaliyyətinə tələbkarlıq artırıldı. Heydər Əliyevin qeyd etdiyi kimi, XX əsrin 70-ci illərindən etibarən peşəkar hərbi kadrların hazırlanması məsələsi Azərbaycan xalqının əsas vəzifələrindən biri kimi ortaya qoyuldu. Bütün bunların nəticəsində həm gənclərin hərbi xidmətə çağırış işi təkmilləşdirildi, həm də azərbaycanlıların xüsusi ixtisas hazırlığı verən hərbi hissələrə göndərilməsi artdı. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin diqqət yetirdiyi məsələlərdən biri də silahlı qüvvələr tərkibində azərbaycanlı zabitlərin məsul vəzifələrə irəli çəkilməsi məsələsi idi. Ulu Öndər bildirirdi ki, o vaxt bir çox zabit və generalların irəli çəkilməsinə çalışmaqla Azərbaycanın bugünkü zabit kadrlarının əsasının qoyulmasını istəyirdi. Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə Bakıda iki ali hərbi məktəb var idi. Biri Bakı Ali Ümumqoşun Komandirləri Məktəbi, digəri isə Bakı Ali Hərbi Dənizçilik Məktəbi. Bu məktəblərin hər ikisi İttifaq miqyasında sayılıb-seçilən məktəblərdən idi və təhsil almaq üçün İttifaqın ən müxtəlif şəhərlərindən bu məktəblərə axışıb gəlirdilər. Ali Hərbi Dənizçilik Məktəbində xarici ölkələrdən gələn xeyli sayda kursant təhsil alırdı. Onların arasında azərbaycanlıların sayı son dərəcə az idi. Bu vəziyyətin dəyişdirilməsi üçün Heydər Əliyev öz qətiyyətini ortaya qoydu və ilk növbədə Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinin rəhbərliyinə yüksək rütbəli azərbaycanlı kadrın gətirilməsinə nail oldu. Sonra bu məktəbə qəbul olunanlar arasında azərbaycanlıların sayının artırılması üçün geniş təşkilati işlər aparıldı. Nəticədə bu məktəbə daxil olan azərbaycanlıların sayı xeyli artırıldı. Heydər Əliyev bununla da kifayətlənmədi və İttifaq miqyasında olan ali hərbi məktəblərdə təhsil alan gənclərin də sayı artırıldı. Nəhayət, sovet dövründə milli zəmində aparılan hərbi-təşkilati işin zirvəsi Azərbaycanda general Cəmşid Naxçıvanski adına hərbi-internat məktəbin açılması sayıla bilər. Bu məktəbin açılması Heydər Əliyevin vaxt ötdükcə öz əhəmiyyətini daha da artıracaq tarixi nailiyyəti, bu böyük dühanın öz xalqının gələcəyinə bağlılığının heç zaman unudulmayacaq nişanəsidir. C.Naxçıvanski adına Hərbi Lisey Heydər Əliyevin diqqət və qayğısı ilə qısa vaxt ərzində ən müasir hərbi təhsil müəssisəsinə çevrildi. Belə xüsusi diqqət və qayğı Azərbaycanda hərbçi peşəsinin nüfuzunun artmasında çox mühüm rol oynadı. Nəticədə orduda peşəkar hərbçilərin sayı artdı.

**Respublika Veteranlar Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov "Şərq"ə açıqlamasında deyib ki, sovet imperiyasının bütün gücünə, qüdrətinə və onun respublikadakı "sapı özümüzdən baltaları"nın canfəşanlığına baxmayaraq, xalqın azadlıq, müstəqillik ideyalarını məhv etmək, onu mənən sındırmaq mümkün olmadı. Polkovnik qeyd edib ki, belə bir vaxtda sovet rəhbərləri Heydər Əlirza oğlu Əliyevi Dövlət Təhlükəsizlik Komitəsinə sədr təyin etdilər:** "DTK-nın rəhbərliyi Heydər Əliyev üçün məqsəd yox, vasitə, imkan və səlahiyyət idi. Şəxsən mənim fikrimcə, Azərbaycanda Heydər Əliyev erasının tarixi onun DTK-nın rəhbəri işlədiyi vaxtdan başlayır. İlk növbədə ona görə ki, ölkə, xalq, respublika miqyasında taleyüklü məsələlərin sistematik, ardıcıl həllinin fundamenti yaradıldı. Nəticədə Azərbaycan xalqı bir sıra dəhşətli fəlakətlərdən qorundu, bir sıra amansız zərbələrdən minimum itki ilə qurtardı. Təfsilatına varmadan onlarla ziyalının "KQB" repressiyasından məhz DTK-nın sədri Heydər Əliyevin sayəsində xilas olduğunu qeyd etməklə kifayətlənmək istəyirəm. O, müdrik fəaliyyətin, incə diplomatiyanın sayəsində DTK-da milliləşdirmə siyasəti həyata keçirdi. Bu orqanda azərbaycanlıların sayının artırılması, qiyməti hələ də verilməmiş möhtəşəm bir qələbə idi. 1969-cu ildə Heydər Əliyev Azərbaycan Respublikasına rəhbərlik etməyə başladı. Heydər Əliyev DTK-nın rəhbəri işlədiyi dövrdə gördüyü işləri daha geniş miqyasda, daha əsaslı və səlahiyyətli şəkildə, xüsusən də konseptual halda davam etdirməyə başladı. Onun quruculuq fəaliyyəti respublikanın ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni sahələrini bütövlükdə əhatə etdi. Məlum olduğu kimi, çar Rusiyası dövründə də, bolşevik rejimi illərində də azərbaycanlıları imkan daxilində hərb sahəsindən kənarda saxlamağa çalışırdılar. Bu, bir tərəfdən inamsızlıqdan irəli gəlirdisə, digər tərəfdən də gələcəyin müstəqil dövlətini ordusuz, sərkərdəsiz bir ölkə kimi görmək istəyi ilə bağlı idi. Heydər Əliyev ilk növbədə, psixoloji baryeri aradan qaldırmaq üçün kompleks tədbirlər planı həyata keçirdi. Hərbi xidmətə gedən gənclərin təntənəli şəkildə yola salınması, nümunəvi xidmət göstərənlərin təbliğ olunması, ən başlıcası isə milli zabit kadrlara xüsusi qayğı göstərilməsi ənənəyə çevrildi. Yüzlərlə, minlərlə azərbaycanlı hərbiçilərin vəzifəyə təyin olunmasında, hərbi rütbə almasında Heydər Əliyevin uzaqgörən, milli strateji maraqlara cavab verən siyasəti əhəmiyyətli rol oynayıb. Bu qayğını, ehtiramı və hörməti görən azərbaycanlıların hərb sənətinə münasibəti tədricən dəyişdi".

*Polkovnik vurğulayıb ki, böyük zəhmətin, müdrik fəaliyyətin nəticəsində Heydər Əliyev Bakıda general Cəmşid Naxçıvanski adına hərbi məktəbin açılmasına nail oldu.* C.Naxçıvanski adına hərbi məktəbin açılması əvəzsiz tarixi hadisə idi. Bununla respublika dövrün ən müasir texniki, elmi, tədris tələblərinə cavab verən hərbi tədris bazası qazanmış oldu. Heydər Əliyev hərbi vətənpərvərliyin təbliği işinə də xüsusən qayğı göstərirdi. Təbliğat prosesində Bakək, Koroğlu, Qacaq Nəbi, Ə.Şıxlınski, S.Mehmandarov, C.Naxçıvanski, Mehdi Hüseynzadə, Həzi Aslanov, İsrafil Məmmədov, Ziya Bünyadov kimi xalq və ikinci dünya müharibəsi qəhrəmanları təbliğ olunurdu. Azərbaycanlılarda ulu tarixi olan döyüşkənlik ruhunun sönməsinin qarşısı alınırdı. Məhz Azərbaycan uğrunda şəhidliyin və qaziliyin şərəf, qeyrət, vətəndaş borcu olduğu təlqin edilirdi. Heydər Əliyev yenidən hakimiyyətə gələn gündən ordu quruculuğuna prioritet istiqamət verdi. Bu vacib sahə diletantlardan, naşılardan təmizləndi. Silahlardan təyinatı üzrə döyüş bölgələrində istifadə olunmağa başlandı. Bu gün Azərbaycanda nizami ordu mövcuddur. Ordumuz müstəqil ölkəmizin təhlükəsizliyini ayıq-sayıqlıqla qorumaqla yanaşı, hər cür təcavüzkarı yerində oturtmağa da daim qadirdir. Bunu 44 günlük Vətən müharibəsi bir daha bütün dünyaya sübut etdi".

**İsmayıl Qocayev**

# Ölkədə kəskin bahalaşma var

## Millət vəkili bildirib ki, Azərbaycanda qiymət siyasəti başlı-başına buraxılıb



**Dünən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. 17 məsələnin müzakirə olunduğu iclasda hökumət nümayəndələri də iştirak ediblər. Çıxış edən deputatlar bir sıra problemləri gündəmə gətirərək məmurların diqqətinə çatdırıblar.**

Millət vəkili Əli Məsimli Azərbaycanda süni qiymət artımından və dərmanların kəskin bahalaşmasından danışıb. Deputat bildirib ki, süni surətdə qiymət artımının hər faizi əhaliyə ildə 500 milyon manatdan çox ziyan vurur: "Azərbaycanda qiymət artımı idxal, iqtisadi inkişaf və inhisarçıların addımları olmaqla 3 mənbədən asılıdır. Əvvəl illik inflyasiya 4 faiz proqnozlaşdırılmışdı, amma 14,6 faiz oldu. Xalq istehlak malları hətta 20 faizdən 92 faizədək artdı".

**"Cəza almayacağına tam əmin olan insan istədiyi kimi qiyməti artırır"**

**Əli Məsimli bildirib ki, xüsusilə dərmanların bahalaşması ailə büdcəsinə güclü zərbə vurur:** "İqtisadi komitə bununla bağlı sanballı sənəd hazırlayıb. Sənəddə təkliflər var. Keçən dəfə deputat Vahid Əhmədov faktları demişdi. Mən bir professorun sözünü deyəcəyəm. Türkiyədə qiyməti 3,2 manata olan dərman Azərbaycanda 39,4 manata satılır. Bunun qarşısını, düşünürəm ki, Rəqabət Məcəlləsinin qəbul olunması alacaq. Cəzalandırılmayacağına tam əmin olan insan istədiyi kimi qiyməti artırır".

**"Pensiya yaşının 65-ə çatdırılması tələskənlikdir"**

**Millət vəkili pensiya yaşı ilə bağlı da müraciətlərin olduğunu deyib:** "Müəllimlər və həkimlər qalıb işləmək istəyirlər. Pensiya yaşına çatana qədər insanların bir hissəsi dünyasını dəyişir. Pensiya yaşının 65-ə çatdırılması tələskənlikdir. Pensiya yaşına baxmaq üçün yenidən dinləmələrin keçirilməsini təklif edirik".

**"Nə qədər pensiyanı, əməkhaqqını qaldırsaq da, xeyri olmayacaq"**

**Millət vəkili Vahid Əhmədov da bildirib ki, Azərbaycanda kifayət qədər qiymət artımı var:** "Gürcüstanda qiymət artımı ilə bağlı tavan qiyməti qoyurlar, yəni bu qiymətdən yuxarı sata bilməzlər. Qiymət siyasətində problemi həll etməsək, nə qədər pensiyanı, əməkhaqqını qaldırsaq da, xeyri olmayacaq. Təklif edirəm ki, İqtisadiyyat Nazirliyi ilə qiymət siyasəti ilə bağlı görüş keçirək. Azərbaycanda qiymət siyasəti başlı-başına buraxılıb. Yox əgər nəzarət olunursa, niyə qiymətlər bu həddədir?!". Vahid Əhmədov əlavə edib ki, "Lombardlar haqqında" qanun layihəsi üzərində müəyyən təzyiqlər var: "İstəmirlər ki, biz bu qanunu qəbul edək. Mən başa düşürəm ki, lombardlarla əlaqədar olaraq maraqlar kifayət qədər böyükdür. Amma bu qanunun qəbulu çox vacibdir. Biz lombardların sayını belə bilmirik. Onlara lisenziyaların verilməsi, qeydiyyata alınması vacibdir".

**"Çatışmayan dərmanları almaq üçün dövlət qurumu yaradılsın"**

**Deputat Rüfət Quliyev də qeyd edib ki, dərmanlarla əlaqədar böyük problem var:** "Təklif edirəm ki, Türkiyənin böyük dərman şirkətləri Azərbaycana dəvət olunsun, burada dərman istehsal etsinlər. Buna imkan var və bilirik ki, Türkiyə özünü dərmanla təxminən 85 faiz təmin edir. Amma bu ola bilər ki, bir ilə qədər vaxt aparsın. İnsanlar bir ilə qədər dərmanlarla bağlı nə etsinlər? Bu gün gedirsən dərmanı 1 manata alırsan, səhəri gün olur 1,15 manat. Konkret təklif edirəm ki, bəzi dövlət qurumlarını dəvət edib soruşaq ki, "Nə etmək istəyirsiz?!". Məsələn, dərmanlarla bağlı Səhiyyə Nazirliyinə zəng edəndə deyirlər ki, bununla bağlı Taarif Şurası və dərman şirkətləri məşğuldur. Təklif edirəm ki, bir dövlət qurumu yaradılsın, onlar bazarda dərman çatışmayanda tender əsasında özləri alsınlar, aptek şəbəkələrinə satış üçün versinlər. Burada müəyyən qədər dövlət tərəfindən tənzimləmə olsun".

**"Məktubumu itiriblər, "Azərsu" ASC konkret cavab versin ki, bacarmırıq"**

**Rüfət Quliyev bəyan edib ki, "Azərsu" ASC-yə 3 ay bundan öncə məktub yazıb. Bildirib ki, ciddi su problemi yaşayan ailələr var:** "İnsanlar var ki, ana su xətti evlərindən 200 metr uzaqdan keçir, deyirlər fərdi qaydada pul ödəyirik, su çəksinlər. Bir ildir çalışıram, bunu edə bilmirəm. İstərdim ki, "Azərsu" ASC-nin rəhbəri desin ki, bu, niyə mümkün deyil? Bunu havayı istəmirik ki? İkinci məsələ budur ki, necə olur Milli Məclisin deputatının məktubuna 3 ay cavab verməsinlər? Bu gün mənim köməkçim zəng edib deyir ki, "Rüfət müəllim, sizin məktubu itiriblər, məktubu tapa bilmirlər". Bunlar başını itiriblər! Bir məktubu tapıb cavablandıra bilmirlər. "Azərsu" ASC konkret cavab versin ki, bacarmırıq, ya da texniki imkan yoxdur".

**"Azərbaycanda problemli kreditlərlə bağlı mənzərə pis deyil"**

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında komitə sədri Tahir Mirkişili bildirib ki, hazırda Azərbaycanda vaxtı keçmiş kreditlərlə bağlı mənzərə o qədər də pis deyil. Onun sözlərinə görə, 2022-ci ildə 20 milyardlıq kredit borcları var:** "Vaxtı keçmiş kreditlərin həcmi təxminən 600 milyona yaxındır ki, bu da 3 faiz həcmindədir. Mərkəzi Bank bu istiqamətdə kifayət qədər mexanizm qurmağı bacarıb". Komitə sədri bildirib ki, bu, beynəlxalq təcrübədə qəbul olunacaq bir haldır: "Yaxın vaxtlarda parlamentə banklarla bağlı ayrıca bir qanunlar paketinin gəlməsi gözlənilir".

**İsmayıl Qocayev**



# Avtomobillərin hərəkəti müşahidə ediləcək

## Bəlkə bundan sonra sürücülərin də işi yüngülləşər

**Azərbaycanda bir sıra avtomobillərin hərəkəti müvafiq dövlət qurumu tərəfindən müşahidə ediləcək. Bununla bağlı Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında "Avtomobil nəqliyyatı haqqında" qanuna dəyişikliklər müzakirəyə çıxarılıb.**

Dəyişikliyə əsasən, aşağıdakı hallardan biri və ya bir neçəsi olduqda iriqabaritli və ağırçəkili nəqliyyat vasitələri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) avtonəqliyyat vasitəsilə müşayiət edilməlidir: nəqliyyat vasitəsinin eni 2,55 metrdən artıq olduqda; nəqliyyat vasitəsinin hündürlüyü 4 metrdən artıq olduqda; nəqliyyat vasitəsinin uzunluğu 24 metrdən artıq olduqda; nəqliyyat vasitəsinin ümumi kütləsi 50 tondan artıq olduqda. Eni 3,5 metrdən artıq, uzunluğu 30 metrdən artıq, ümumi kütləsi 80 tondan artıq, hərəkət zamanı nəqliyyat vasitəsi əks istiqamətdəki hərəkət zolağını bu qanunun 48.2-ci maddəsində nəzərdə tutulmuş qayda ilə müəyyən edilən hədlərdən artıq tutduqda isə nəqliyyat vasitəsi müvafiq qurumun həm mühafizəsi, həm də müşayiəti hərəkət etməlidir.

**Mövzu ilə bağlı "Şərq"ə danışan nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov qanuna təklif edilən dəyişikliklərin hansı məqsəd daşıdığını açıqladı:**

- Hesab edirəm ki, əsas məqsəd qanunsuz yükdaşımaların qarşısını almaq, bu sahədə çalışan sürücülərin işçi kimi hüquqlarının müdafiəsi ola bilər. Məlumdur ki, yük avtomobillərinin paytaxta girişiylə bağlı yeni normativlər tətbiq edilir. Burada yol hərəkətinin təhlükəsizliyi də əsas məsələdir. Gördük ki, dekabr ayında yük avtomobilinin iştikarı ilə böyük qəza baş verdi. Yük avtomobillərinin hərəkətinə, onların mövcud normativ qaydaları pozmamasına ciddi nəzarət edilməlidir. Buna görə də yük avtomobillərinin, qanuna dəyişiklikdə göstərilən halda, müvafiq qurumun nəqliyyat vasitəsinin nəzarəti və ya müşayiəti altında hərəkət etməsi lazım gəlir. Bu şəkildə nəzarət və müşayiət qanunsuz yükdaşımaların da qarşısını almağa hesablanır. Sürücülərin hüquqlarının qorunması məsələsinə isə xüsusi aydınlıq gətirmək istəyirəm. Yük avtomobillərinin sürücüləri bəzən sahibkarlar, eləcə də əməkdaşı olduqları qurumlar tərəfindən Əmək Məcəlləsinə zidd olaraq daha çox çalışdırılır, yuxulu, yorğun halda avtomobil idarəetməyə cəlb olunurlar. Bu da yollarda yük avtomobillərinin iştirakı ilə ağır qəzaların baş verməsinə səbəb olur. Eyni hal ictimai nəqliyyata da aiddir. İctimai nəqliyyat sektorunda çalışan avtobus sürücüləri də çox zaman yorğun, yarıyuxulu vəziyyətdə olur. Bu ona görədir ki, sürücülər gün ərzində fasiləsiz olaraq sükan arxasında əyləşir, səhər saatlarından etibarən taki gecəyədək avtobus idarə edirlər. Belə vəziyyətdə əlbəttə qəza hallarının yaranması da labüd şəkil alır. İstirahət etməyən sürücü təbii ki, əsəbi, gərgin olur həm də. Bunlar hamısı ictimai nəqliyyatın fəaliyyətinə mənfi təsir edir. Yük avtomobillərinin müşayiət olunması, onlara nəzarət sürücülərin də işini yüngülləşdirər.

Əsas məqsəd qanunsuz yükdaşımaların qarşısını almaq, bu sahədə çalışan sürücülərin işçi kimi hüquqlarının müdafiəsi ola bilər

**Məlahət Rzayeva**

Yurda qayıdış



Həmayil Əhmədqızı

# Ləmbəlinin yetim qalan yolları

**Həyat sürprizlərlə doludur. Bəzi sürprizlər insana qol-qanad verib göylərə qaldırır, bəziləri isə qol-qanadını sındırıb dünyanı tar-mar edir. Nədənsə, xalqımızın taleyinə yazılan sürprizlər həmişə qol-qanadımızı sındırıb dünyamızı tar-mar edib. XIX əsrin sonu, XX əsrin əvvəllərində qarşılaşdığımız sürprizlər kimi. Bu sürprizlər xalqımıza didərginlik, köçkünlük, qaçqınlıq həyatı yaşatdı.**

Torpağını canından artıq sevən, ona sonsuz sevgi ilə bağlanan həmvətənlərimizi kökündən qoparıb dədə-baba torpağından didərgin saldılar. Torpaqla bərabər, o torpağa olan sevgi də əllərindən alındı. Dünyanın ən gözəl məkanında yaşasalar belə, artıq o sevgini bir daha yaşamayacaqlar. Torpağa bağlı olan bir millət üçün torpağını, o torpağa sevgisini itirmək onun həm maddi, həm mənəvi faciəsidir. XX əsrin əvvəllərində o faciənin canlı şahidi olan nənəm, əsrin ortalarında olanları atam, anam danışardı. Əsrin sonunda baş verən müsibətləri özüm gördüm, özüm şahid oldum. XX əsrin sonunda bizə qarşı haqsızlıq, ədalətsizlik son həddinə çatdı. Dövlətin vətəndaşına olan milli ayrıseçkiliyi, ögey münasibəti dövlətə inamımızı sarsıtdı, güvənimizi itirdi. Bədxahlar bəd niyyətlərini həyata keçirmək üçün Sumqayıt hadisəsini törətdi. Sumqayıt hadisəsi başımıza açılacaq zəncirvari faciələr üçün bir vəsilə oldu. Üzərimizə atılan böhtanlar, iftiralar, yalanlar sərhədləri aşıb dünyanı gəzirdi. Haqsızlığa qarşı hamının içərisində bir vulkan püskürürdü. Ziyalılarımızın içərisindəki vulkan daha güclü idi. Həqiqəti dünyaya çatdırmaq üçün qələmə sarıldılar, ancaq...

**Yazırdıq, oxuyan yox,**
**Deyirdik, eşidən yox.**
**Dünya kar, kor olmuşdu,**
**Eşidib oxuyan yox.**

O günlərdə mən də əlimə qələm aldım. Gördüklərimi, başımıza açılan oyunları, müsibətləri gələcək nəsillərin yaddaşına həkk etmək üçün, dost-düşməni yaxşı tanıtmaq üçün, ürəyimdəki ağrını-acını azaltmaq üçün.

Azərbaycanın Borçalı mahalını üç yerə parçaladılar. Bir hissəsini Gürcüstana, digər hissəsini(Dağ Borçalısını) Ermənistana verdilər. Az hissəsi Azərbaycanda qaldı. Qohumlarımızın yaşadığı böyük bir kənd-Ləmbəli kəndi ermənilərə verildi. Ləmbəli kəndinin əhatəsində olan azərbaycanlı kəndləri, o cümlədən kəndimiz-Bəytarafçı kəndi Gürcüstanın ərazisinə daxil edildi. Ermənilərin Azərbaycan kəndləri içərisində Ləmbəli kəndini ciddi-cəhdlə sahiblənmək istəməsi təsadüfi deyildi. XX əsrin əvvəllərində Ləmbəli bəylərinin, ağalarının geniş, münbit torpaq sahələri var idi. Ermənilər kəndlə birlikdə o torpaqları da ələ keçirməyə can atırdı. Ona da nail oldular. Ləmbəli camaatı biləndə ki, onların kəndlərini qonşu azərbaycanlı kəndlərindən ayırıb ermənilərə veriblər, bu bölgü ilə razılaşmayıb, o illərdə Tiflisdə məsul vəzifədə çalışan Nəriman Nərimanovun yanına gedib bu bölgüyə qəti etirazlarını bildirdilər. Nəriman Nərimanov təəssüflə o bölgüdən xəbəri olmadığını bildirir. Xəbər tutub etirazını bildirəndə, məlum olur ki, o bölgü bağlı qapılar arxasında, ondan xəbərsiz ermənilərin və onların havadarları tərəfindən bölünüb. Ləmbəli camaatının narahatlığını başa düşən Nərimanov onların təhlükəsizliyi üçün söz verir.

Ləmbəlilərin narahatlığı əbəs deyildi. Ermənilər kəndi zəbt edən kimi kəndin ən hörmətli, haqsızlığa, ədalətsizliyə qarşı susmayan, sayılıb-seçilənlərinə şərböhtan ataraq həbs etdirirlər. Nərimanov həbsdə olanların iftiranın qurbanları olduğunu sübuta yetirir. Onları həbsdən azad etdirir və Ləmbəli camaatının təhlükəsizliyini təmin etmək üçün kəndi xüsusi nəzarətə götürür. Təəssüf ki, bədxahların bəd niyyətinə mane olan Nərimanovu tezliklə aradan götürürlər. Nərimanovun vəfatından sonra ermənilər gizli saxladıqları planları həyata keçirməyə başlayırlar. Bir nəfər də olsun erməni yaşamayan Ləmbəli kəndini erməniləşdirməyə başlayırlar. Müxtəlif yerlərdən, əsasən Krasnodardan erməniləri gətirib məskunlaşdırırlar. Kəndin adını dəyişdirib Debedaşen qoyurlar. Bu ad iki qonşu - Sadaxlı və Ləmbəli kəndini ayıran, mənbəyini Pəmbək və Ağlağan dağ silsilələrindən götürən Debeda (Tona) çayının adından götürülüb. Ermənilər Sumbataşvilinin saldığı iki qonşu kəndi - Sadaxlı və Ləmbəlini birləşdirən körpünün üzərindən Sumbataşvili adını elə sildilər ki, nə adı qaldı, nə izi, nə tozu. Erməni xislətinə uyğun gəlmədiyi üçün tezliklə Debedaşen adını dəyişdirib Baqrataşen qoydular. İllər keçdi. Baqrataşen iki kəndi birləşdirən körpünü Sadaxlının, Ləmbəli və Bəytarafçı yolunu isə bəytarafçıların üzünə həmişəlik bağladı.

**Əzininəm, yolları,**
**Ləmbəlinin yolları.**
**Nə gələn var, nə gedən,**
**Yetim qalıb yolları.**

Hər dəfə kəndə gedəndə uzun-uzadı o yollara baxıram. Qohum-əqrəba, dost-tanış yolunu gözləyirəm, ancaq nə gələn var, nə gedən. Yolları kol-kos basıb. Kövrəlirəm. Yollarını gözlədiklərim pərən-pərən olub, hərəsi bir diyara səpələnib. Bu müsibətə, haqsızlığa, ədalətsizliyə çətin də olsa, dözən dözdü, dözməyənlər dodaqlarında cavabsız "niyə" sualı ilə dünyasını dəyişdi. Yatdıqları yer cənnət-məkan olsun. Amin!



Əsrin sonunda SSRİ-də qəribə hadisələr cərəyan edirdi. Ölkədə bir çalxalanma hiss olunurdu. Hamımızın içində bir narahatlıq, bir tədirginlik yaranmışdı. Yadıma rəhmətlik nənəmin bir sözü düşdü, kimsə dava salıb dalaşmaq istəyəndə deyərdi: "Yaman çalxalanır, bir xata törədib qan çıxaracaq, ondan aralı durun". Bu çalxalanma istəməsək də məcburən bizi də çalxalayırdı. Çalxalanmanın nəticəsində necə xəta törədilib, qan töküləcəyini hələlik bilmirdik. Narahat idim. Görəsən, bu çalxalanma biz tərəfə də təsir edirdimi?!

Kəndə getmək istəyirdim, vaxtı dəqiqləşdirə bilmirdim. Anamın xəstələnməsi xəbəri vaxtı dəqiqləşdirdi. Səhər tezdən yola düşdüm. Kəndə çatanda gördüklərimə inana bilmirdim. Sakit, öz halında olan kəndimiz qaynar qazana dönmüşdü, qaynayırdı. Maşından düşdüm, sanki yerə mıxlandım. Addım ata bilmirdim. Kəndin əsas yolu, ara yolları böyüklü-kiçikli adamlarla, mal-qara ilə, dolu gəlib boş gedən yük maşınları ilə dolu idi. Adamların üzündə heç bir sözün ifadə edə bilmədiyi dərd, kədər, hüzün var idi. Kimsəyə yaxınlaşıb bir söz soruşa bilmirdim. Nələr olduğunu ürəyim mənə pıçıldayırdı. Bu pıçıltı bütün varlığımı alt-üst etdi. Çətinliklə də olsa, bütün olanlardan xəbər tutub, yayımlayan "ortalığa" gəldim. Ortalıqda bulağın başına çətir kimi açılan qonaq ağacının altı kənd camaatı ilə dolu idi *(Kəndə gəlib-gedənlərin dayanacaq yeri qovaq ağacının altı olduğu üçün kənd camaatı ona qonaq ağacı adı vermişdi)*. Dolu gələn yük maşınları qonaq ağacına yaxınlaşan kimi kənd camaatı tez cumub, hər kəs köçü öz evinə aparmağa çalışırdı. Kənddə qohumları olanlar isə köç maşınlarını birbaşa onların həyətinə sürdürürdü. Hansı evə dolu yük maşını gedirdisə, camaat arxasınca cumub, tez yükü boşaldıb növbəti yükü gətirmək üçün yola salırdı. Gördüklərim ürəyimi iki hissəyə bölmüşdü. Bir hissəsi başımıza gələnlərin ağrısı, acısı ilə dolmuş, digər hissəsi həmvətənlərimizin bu ağır günündə kənd camaatının onların dərdinə şərik olması, arxa-dayaq durması qüruru ilə dolaraq içimdəki ağrını, acını qovmağa çalışırdı. Ancaq ağrı, acı o qədər ağır idi ki, onu söküb atmağa gücü yetmirdi. Düşünürəm, kaş, gen günümüzdə də, dar günümüzdə də bir olmağı bacaraq. Onda ürəyimiz həmişə qürur, sevinc hissi ilə dolu olar, kədərə, dərdə, qəmə yer qalmaz.

Fikirli-fikirli kənd arası yolla evimizə tərəf irəliləyirdim. Dəmir qapı taybatay açıq, həyətimiz tanıdığım-tanımadığım adamlarla dolu idi. Hamı tələm-tələsik ev əşyaları ilə dolu olan yük maşınını boşaldırdı. Mane olmamaq üçün dəmir qapının bir küncündə durub sakitcə onları izləyirdim. Nəhayət, maşını boşaldıb növbəti köçü gətirməyə yola saldılar. Əşyaları tələsik boşaltdıqları üçün hərəsi bir tərəfə dağılmışdı. Həyətdə üç ailənin köçü boşaldığına görə sərbəst yerimək mümkün deyildi. Çətinliklə də olsa, onlara yaxınlaşdım, salam verdim. Deyəsən, nə məni görən oldu, nə salamımı eşidən. Anam xəstəliyini unudub ayaqüstə hərlənirdi. Birdən məni görüb:

**- Sən nə vaxt gəlmisən, ay bala?**

*Cavab gözləmədən qəhərlənə-qəhərlənə:*

**- Başımıza gələni görürsənmi? Kimin ağlına gələrdi?**

*Dillənə bilməsəm də, gözlərimlə:*

- Heç kimin.

Anamla dialoqumuzu kəsib nəzərlərimi "qonaqlarımıza" yönəltdim. Sanki şaxtalı qış gecəsi hamısını yerindəcə dondurmuşdu. Kimi pilləkəndə oturub başını iki əlləri arasına almışdı, kiminin də nəzərləri Ləmbəli yoluna dikilib qalmışdı. Hiss edirdim, hamını kənddə qalanların taleyi düşündürürdü: "Görəsən, şər qarışana kimi bütün ləmbəlilər kənddən çıxa biləcəklərmi?".

Marneuli rayonunun rəhbərliyinə *(çox təəssüf ki, adını unutmuşam)* gizli məlumat çatdırılmışdı. Axşama kimi kəndi tərk etməyən ləmbəliləri dəhşətli faciə gözləyir. Bu səbəbdən rayonun rəhbərliyi axşama kimi ləmbəlilərin köçürülməsi üçün rayonun yük daşıya biləcək bütün maşınlarını səfərbər etmişdi. Köçürülməyə şəxsən özü nəzarət edirdi. Şər qarışanda, axırıncı yük maşını kəndi tərk edərkən güclü atəşə tutulur. Xoşbəxtlikdən yaralanan olsa da, ölən olmamışdı.

Payızın son ayı idi. Hava sazaqlı və soyuq idi. Kəndimizlə üzbəüz Lələr dağı bəmbəyaz qar örtüyünə bürünmüşdü. Lələrin soyuğunu, sazağını kənd maqnit kimi özünə çəkirdi. Narın yağış yağmağa başladı. Heç kəs nə yağışa fikir verirdi, nə yağışın altında islanan əşyalara. Səssizliyi anamın səsi pozdu:

**- Nə durmusunuz? Barxanaları içəriyə yığın!**

Uşaqlı-böyüklü hamı robot kimi hərəkətə gəldi. Yağışın altında islanan barxanaları necə gəldi içəriyə doldurmağa başladılar. Əşyaları yerləşdirməyə isə yer yox idi. Gözümüzün önündə illərlə çəkilən zəhmətin qazancı olan əşyaları yağış damcıları döyəcləyirdi. Bibim dözməyib əşyaların üstünü örtməyə çalışırdı, ancaq bir şey tapa bilmirdi. Vurnuxa-vurnuxa qalmışdı. Birdən həyətin o biri üzündən - dəmir qapının arxasından aramla, çəkinə-çəkinə alçaq səslə it hürməyə başladı. Bibim tez səs gələn tərəfə boylanıb həyəcanla, təşvişlə:

**- Bu, Alabaşın səsidir, bu, Alabaşın səsidir. Buraya necə gəlib çıxıb?!**

Tez dəmir qapıya tərəf getmək istəyəndə tövlə olmadığı üçün yağışın altında soyuqdan tir-tir əsən Alagöz inəyi birdən elə yanıqlı-yanıqlı mələdi ki, səsi bütün kəndi lərzəyə saldı. Bu səsdə sanki olanlara qarşı bir etiraz, bir üsyan vardı. Bibim Alagözlə Alabaşın arasında qalmışdı. Dünən bala verən Alagözünə qulluq edə bilmədiyi üçün xəcalət çəkirdi. Bu müsibətin axıtdığı gözyaşları bibimin yanağından yuvarlanıb sinəsinə tökülürdü. Kürəyindən yun şalını açıb Alagözün belinə saldı. Sonra oğluna sarı dönüb:

**- Amandır, bala, inək simləyəcək. Gör, bir yer tapa bilərsənmi, içəri salasan?**

*Bibim gah tir-tir əsən Alagözə, gah yazıq-yazıq ona baxan Alabaşa, gah da yağışın altında tamam islanıb suyu süzülən əşyalara baxıb birdən diz üstə yerə çökdü. Əllərini göyə qaldırıb:*

- Ey gözəl Allahım, bizim, bu dilsiz heyvanların günahı nə idi ki, başımıza bu müsibəti açırlar? Bizi evimizdən-eşiyimizdən didərgin salırlar. Hökumətimizə nə pisliyimiz dəyib, bu müsibəti bizə çəkdirir? Var gücümüzlə çalışıb, əlləşib dövlətimizi gücləndirdik, möhkəmləndirdik, qoruduq, əzizlərimizi davaya göndərdik. Çoxu qayıtmadı, qayıdanlar şil-küt qayıtdı. Qadınlarımız kişiləri əvəz etdilər. Gecəli-gündüzlü bacarıb-bacarmadığı işlərdə çalışdılar, işləri axsamağa qoymadılar. Zəhmətimiz hədər getmədi. Davada qazandıq. Sevindik, öyündük, dövlətimiz qalib gəldiyi üçün. Dava qurtardı, sevinməyimiz gözümüzdə qaldı. Zəhmətimizin "mükafatını" dövlətimiz verib, kökümüzdən qopardıb ev-eşiyimizdən didərgin saldı. Ləmbəli camaatı bu haqsızlıqla barışmadı. Uzun müddət yorulmadan, usanmadan əlləşdi, vuruşdu. Axırda çox çətinliklə məqsədimizə çatdıq, yurdumuza-yuvamıza, evimizə geri göndük. Sevindik. Yurd-yuvasından, ev-eşiyindən didərgin salınmanın nə demək olduğunu gördük. Ağrısını-acısını daddıq. Bunu ancaq görənlər, çəkənlər bilər. Təzədən bu ağrıacını bizə niyə çəkdirirlər?

Atam bağımıza iki ərik fidanı əkmişdi. Bir neçə ildən sonra əriklər ilk barını verdi. Birində üç, o birisində iki ərik vardı. Əriklər həm dadlı, həm ətirli idi. Atama məsləhət gördülər ki, ərikləri bağdan çıxarıb həyətdə əksin. Ərik ağacının yarpaqlarının saplağı incə və nazik olduğu üçün yarpaqlar həmişə oynayıb həyətin havasını sərin və təmiz edir. Həyətdə əkilən ərik ağacı həm də ürəyin əlacıdır. Atam ərikləri bağımızdan çıxarıb həyətimizdə əkdi. Hamı ərik ağaclarının başına pərvanə kimi dolanırdı. Yazda əriklər tumurcuqladı, ancaq nə çiçək açdı, nə yarpaq. Əriklər qurumağa başladı. Atam hər dəfə quruyan əriklərə baxdıqca onları kökündən qoparıb yerini dəyişdiyi üçün özünü bağışlamırdı. Onlar qurusa da, yerindən çıxartmağa ürəyi gəlmirdi. Göyərəcəklərini ümid edirdi, ancaq əriklər günü-gündən qupquru quruyurdu. Bibimoğlu ərik fidanlarına baxırdı. Görəsən, nə düşünürdü?!

**(Davamı növbəti sayımızda)**

# Apteklərdə satılan siroplar təhlükəlidir

## Hindistan və İndoneziya istehsalı olan siroplardan istifadə zamanı uşaqlar arasında ölüm halları var



**"Öskürəyə qarşı apteklərdə satılan siroplar təhlükəlidir. Uşaqlar arasında ölüm halları var". Bu xəbərdarlıqla pediatr Vaqif Qarayev çıxış edib. Valideynlərə müraciətində həkim hazırda uşaqlı-böyüklü - əksəriyyətin əziyyət çəkdiyi qrip xəstəliyinin ən ağır fəsadı hesab edilən öskürəyə qarşı apteklərdə satışda olan siropları alarkən ehtiyatlı olmağı tövsiyə edib:**

"İndi yayılan xəstəliklərdə uşaqlı-böyüklü hamı öskürəkdən şikayət edir. Ümumdünya Səhiyyə Təşkilatı öskürək siropları ilə bağlı həyəcan təbili çalır. Hindistan və İndoneziya istehsalı olan siroplardan istifadə zamanı uşaqlar arasında ölüm halları var. Ona görə həkim təyinatı olmadan öskürək siropları vermək düzgün deyil! Öskürəyin səbəbini və dərmana ehtiyacın olub-olmadığını ancaq həkim təyin edəcək! Bəzi hallarda dərmana heç ehtiyac da olmur." Odur ki, uşaq öskürürsə, həmin aptekə qaçıb satışdakı siroplardan almağa tələsməyin. Ən azından sahə həkimi ilə məsləhətləşin. Təbii üsullara üstünlük verin. Zəruri ehtiyac yarandıqda dərman preparatlarından istifadə edin. Öskürək əleyhinə sirop almaq istəyirsinizsə, hansı ölkə istehsalı olduğuna diqqət yetirin.

**Məlahət**

# Müxalifət vahid namizəd seçə bilmir

## "Artıq xalq arasında Ərdoğanın üstünlüyü olduğuna dair xəbərlər var"




**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan normal tarixi 18 iyun olan parlament və prezident seçkilərinin mayın 14-də keçiriləcəyini açıqlayıb. Sədri olduğu Ədalət və İnkişaf Partiyasının Türkiyə Böyük Millət Məclisinin qrup toplantısında çıxış edən Ərdoğan deyib: "Söz də, qərar da, gələcək də millətindir. 2023-cü ildə də millətimizdən dəstək istəyirik".**

*Ərdoğanın birinci turda qalib gələcəyini düşündüyünü deyən AĞ Partiyanın sədr müavini, politoloq Əhəd Məmmədli "Şərq"ə bildirib ki, ona ən böyük rəqib Mənsur Yavaş və İmamoğlu hesab edilir:*

"Artıq xalq arasında Ərdoğanın üstünlüyü olduğuna dair xəbərlər var. Digər tərəfdən müxalifət qüvvələrin şansı isə vahid namizəddədir. Əgər onlar birinci turda vahid namizədlə çıxa bilsələr, Ərdoğana problemlər yaradaraq ikinci tura ümid bəsləyə bilərlər. İçlərində namizədliyə ən şanslı isə Mənsur Yavaşla, Əkrəm İmamoğludur. Düzdür, İmamoğlunun adı daha çox hallanır. Çünki o, şouya meyilli adamdır. Hətta özünə qarşı olan cinayət işindən maksimum istifadə etməyə çalışır. Güya əsas rəqib budur. Halbuki o, cinayət işi açılsa belə 1il 6 aydan sonra qüvvəyə minəcək. Yəni istənilən halda o, prezident seçkilərində iştirak edəcək".

Analitik qeyd edib ki, Mənsur Yavaş sorğularda İmamoğlunu üstələyir: "Lakin İmamoğlu medianın gündəmində olduğu üçün adı daha çox hallanır. İyi Partiyanın rəhbəri Meral Akşener açıq şəkildə İmamoğlunu dəstəkləyir. Ancaq CHP cəbhəsində İmamoğluna qarşı təpki var. Kılıçdaroğlu onun vahid namizəd olmasını istəmir".

**Nihat Müzəffər**

# Xalqın üzünə azadlıq mehi dəyib

## İranın gələcəyinə min il hakimiyyətdə olmuş türk xalqı qərar verəcək



**Avropa İttifaqının İrana qarşı yeni sanksiya paketi qəbul olunub. Bu barədə Avropa İttifaqı XİN başçılarının toplantısında razılıq əldə olunub. Bildirilib ki, bu, ittifaqın İrana qarşı tətbiq etdiyi sayca 4-cü sanksiya paketidir. Həmçinin vurğulanıb ki, rəsmi Tehrana sanksiya tətbiqinin səbəbi İran rejiminin dinc etirazları zorakı yollarla yatırtmaq cəhdidir.**

Bununla yanaşı, Avropa İttifaqı insan hüquqlarını pozduğuna görə İran İslam İnqilabı Keşikçiləri Korpusuna (SEPAH) sanksiya tətbiq edib. "Qara siyahı"ya iranlı məmurlar, rəsmilər və şirkət rəhbərləri də daxil edilib. SEPAH İran ordusunun əsasını təşkil edir, eyni zamanda ölkə iqtisadiyyatında da mühüm paya sahibdir. Bu hərbi qurum öz bankına, əkin sahələrinə, xarici dövlətlərin banklarında aktivlərə malikdir. Yeni sanksiyalara əsasən, SEPAH-la bağlı şəxslərin Avropa dövlətlərinə girişi qadağan ediləcək və onların hesabları dondurulacaq.

**Politoloq Azər Qasımov "Şərq"ə açıqlamasında bildirib ki, İran rejimi artıq 40 ildən çoxdur ki, sanksiyalar altındadır. Ekspert vurğulayıb ki, ölkənin durumu göz önündədir:** "Xalq orta əsrlərdəki kimi yaşayır. İran rejiminin nümayəndələri isə Qərb və Avropada özünə və ətrafındakılara şərait yaradıb. Bir çoxlarının uşaqları, nəvələri Amerikada, Londonda yaşayır. Elə həmin SEPAH-ın, dini rəhbərlərin uşaqlarının, nəvələrinin Qərbdə tam sərbəst, açıq-saçıq yaşadıqları məlum olur. Məncə, sanksiyalar əksinə, İran rejimi üçün stimulverici faktora çevrilməkdədir. Sanksiyaların artması xalqın pulunun silahlanmaya sərf olunmasına gedir. Hərbi sahəyə ayrılan vəsait də oğurlanaraq Qərbə daşınır. İran xalqının beyni o qədər saxta Amerika və İsrail düşmənçiliyi ilə doldurulub ki, xalq bu cür addımları lazımlı hesab edir. Amma dünyadan izolə olunmuş şəkildə, orta çağda yaşamağı "qəhrəmanlıq", "din uğrunda mübarizə" sayırlar. Sanksiyalar artdıqca İran rejimi daha da qəddarlaşır. Əməllərinə daha kəskin şəkildə davam edir".

**A.Qasımov düşünür ki, Qərb İran üzərində oyun oynayır:** "Qərbə İranda xalqların azadlığı, onların hüquqlarının qorunması lazım deyil. Qərbə İranda, bütün region ölkələrində, o cümlədən Türkiyədə onun sözünə əməl edəcək hakimiyyətlər lazımdır. Məsələ ondadır ki, əgər hansısa bir hakimiyyət dünya ictimaiyyətinin gözündə diskreditasiya (inam və etimadın sarsılması -red) olursa, Qərb onu görüntü xatirinə dəyişməyə məcbur olur. Yaxud Türkiyədə olduğu kimi sözünü deməyən hakimiyyəti zorla dəyişməyə çalışır. İndi İran rejimi özünü həm xalqı qarşısında, həm də dünya ictimaiyyəti qarşısında diskreditə edib. Qərb üçün onun dəyişdirilmə vaxtı çatıb. Şah rejiminin varislərinin hakimiyyətə iddiası müzakirə olunur və əsasən pəhləvi-fars varislərinin davamçılarının üzərində dayanılır. Türkiyənin bu məsələdə Qacar türk nəslinin varislərinə vurğu etməsi, ülküçülər tərəfindən İstanbula dəvət edilməsi onu göstərir ki, fars-türk mübarizəsi hələ indi-indi vüsət alır. Hadisələrin gedişinə uyğun olaraq proseslər müxtəlif istiqamətlərə gedə bilər. Hesab edirəm ki, İranın gələcəyinə min il hakimiyyətdə olmuş türk xalqı qərar verəcək".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi;

# Güc birlikdədir

## Azərbaycan diaspora qurumları erməni lobbisinə qarşı mübarizədə qardaş Türkiyə ilə ortaq hərəkət edirlər



**Diasporla İş üzrə Dövlət Komitəsi 2022-ci ilin yekunlarına və 2023-cü ilin fəaliyyət planına həsr olunmuş geniştərkibli kollegiya iclası keçirib. İclasda ötən dövr ərzində görülmüş işlərdən və qarşıda duran vəzifələrdən bəhs olunub. Kollegiyanı açıq elan edən Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov 2022-ci ilin Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyətində və Azərbaycan diaspor hərəkatının tarixində əhəmiyyətli yer tutduğunu bildirib.**

O, komitənin və diaspor təşkilatlarının fəaliyyətinə göstərdiyi diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür edib. F.Muradov qeyd edib ki, ötən il Azərbaycanın mədəniyyət paytaxtı Şuşada Dünya Azərbaycanlılarının V (Zəfər) Qurultayı və Diaspor Gənclərinin III Yay Düşərgəsi kimi mühüm tədbirlər keçirilib, Komitənin 20 illik yubileyi Hadrutda əsgər və zabitlərimizlə birlikdə qeyd olunub. İl ərzində Dövlət Komitəsi Azərbaycan haqqında dolğun məlumatların dünya ictimaiyyətinə çatdırılması, maddi-mənəvi irsin kütləvi təbliği, lobbiçiliyin təkamülü, xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması, yaşadıqları ölkələrin cəmiyyətlərinə inteqrasiyası, ictimai-siyasi həyatda aktivliyinin təmin olunması, tarixi vətənlə əlaqələrinin genişləndirilməsi üçün ardıcıl və sistemli tədbirlər həyata keçirib. Habelə diaspor təşkilatları arasında səmimi əməkdaşlıq münasibətlərinin yaradılması istiqamətində fəaliyyət davam etdirilib. Soydaşlarımızın birliyi və azərbaycançılıq ideologiyası ətrafında daha sıx birləşməsi üçün mühüm işlər görülüb. Vurğulanıb ki, hesabat dövründə Azərbaycan diasporu xüsusi aktiv olub, nümunəvi yekdillik və mütəşəkkillik göstərib. Ermənistanın Cənubi Qafqaz regionunda həyata keçirdiyi separatçılıq, ekstremizm, özününküləşdirmə siyasəti ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində önəmli tədbirlər görülüb. Ölkəmizə qarşı erməni diasporu və lobbisi tərəfindən həyata keçirilən kampaniyaların qarşısının alınması, Xocavənd rayonunun Edilli kəndində kütləvi məzarlıqların tapılması ilə əlaqədar xarici ölkələrdə Azərbaycan diaspor təşkilatları tərəfindən dünyanın 40 ölkəsində Ermənistan səfirlikləri və beynəlxalq təşkilatların nümayəndəlikləri qarşısında aksiyalar keçirilib. Ermənistanın 12-14 sentyabr təxribatı ilə əlaqədar Azərbaycan diaspor təşkilatları Avropanın aparıcı paytaxtlarında və şəhərlərində aksiyalar keçirərək, Ermənistan rəhbərliyinə etirazlarını bildiriblər. Ümumilikdə diaspor fəalları yaşadıqları ölkələrin ictimai-siyasi dairələrinə və dövlət-hökumət nümayəndələrinə təxribat barədə 70, diaspor təşkilatları isə 143 müraciət və bəyanat ünvanlayıblar. Komitə sədri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırıq və tövsiyələrinə uyğun olaraq diaspor fəaliyyətinin əlaqələndirilməsi məqsədilə Koordinasiya şuralarının və Azərbaycan evlərinin, eləcə də həftəsonu Qarabağ və Bazar günü məktəblərinin sayının 2023-cü ildə də artırılmasının nəzərdə tutulduğunu vurğulayıb. Daha sonra Komitənin şöbə müdirlərinin hesabatı dinlənilib. Kollegiya iclası Prezidentin sərəncamı ilə təltif olunmuş komitə əməkdaşlarına orden və medalların təqdim olunması ilə yekunlaşıb. Qeyd edək ki, Prezident İlham Əliyevin 4 iyul 2022-ci il tarixli Sərəncamı ilə Azərbaycan diasporu ilə iş sahəsində dövlət siyasətinin həyata keçirilməsində səmərəli fəaliyyətinə görə Komitə sədri Fuad Muradov 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə, 8 əməkdaş "Tərəqqi" medalı ilə təltif edilib. Bundan başqa, Prezidentin 22 iyun 2022-ci il tarixli Sərəncamı ilə 23 iyun - Dövlət qulluqçularının peşə bayramı günü münasibətilə Diasporla İş üzrə Dövlət Komitəsinin 3 əməkdaşı "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunub.

Ümumiyyətlə, qeyd olunmalıdır ki, diaspor siyasəti dövlətin əsas güclərindən biridir. Diaspor təşkilatlarının fəaliyyət göstərdikləri ölkələrin siyasi həyatında aktivliyi həm təşkilatlanma səviyyəsi, həm də cəmiyyətlərin siyasi, iqtisadi inkişafı ilə bağlıdır. Dünyada təmsil olunmaq, ölkəni layiqincə təmsil etmək əsas vəzifədir. Azərbaycan diasporu son illər təşkilatlanaraq, xarici ölkələrdə öz mövqelərini möhkəmləndirməkdədir. Ancaq bu proses heç vaxt dayanmamalıdır. Yeni çağırışlara, dünyada baş verən proseslərə uyğunlaşmalıdır. 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan diasporunun bütün nümayəndələri "dəmir yumruq" kimi birləşməyi bacardı. Xaricdə yaşayan azərbaycanlıların diaspordan lobbiyə çevrilməsi istiqamətində atılan praktik addımların nəticəsini müharibə zamanı gördük. 44 günlük müharibədən sonra Azərbaycan diaspor təşkilatlarının fəaliyyətində yeni mərhələ başladı. Böyük Qələbədən sonra artıq diasporun da vəzifələri dəyişdi, yeni reallıqlara uyğunlaşdı. Biz artıq dünya ölkələrində müzəffər xalqın nümayəndələri kimi təmsil olunuruq.

**Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi İctimai Birliyinin sədri, tanınmış jurnalist Fuad Hüseynzadə "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, eləcə də erməni diasporunun və onları dəstəkləyən qüvvələrin ölkəmizə qarşı apardığı çirkin siyasətin qarşısının alınmasında xaricdə yaşayan azərbaycanlıların müstəsna xidməti var.** Xüsusən 44 günlük müharibədən sonra həmvətənlərimiz yaşadıqları müxtəlif ölkələrdə yüksək səviyyədə təşkilatlanmanın önəmini daha yaxşı dərk edirlər. Ekspertin sözlərinə görə, Azərbaycan diaspora təşkilatlarının tərkib hissəsinə çevrilən həmvətənlərimiz xalqımıza, qardaş Türkiyəyə qarşı düşmənçilik və əsassız torpaq iddialarının, yalanla yoğrulmuş erməni ideologiyasının ifşa olunmasında ardıcıl və sistemli mübarizə aparırlar. Azərbaycan diaspora qurumları erməni lobbisinə qarşı mübarizədə qardaş Türkiyə ilə ortaq hərəkət edirlər: "2021-ci il iyunun 15-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşada Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən imzalanmış Bəyannamənin əhatə etdiyi mühüm sahələrdən biri də birgə diaspora fəaliyyəti ilə bağlıdır. Hesab edirik ki, Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin diaspor təşkilatları vahid siyasət ətrafında fəaliyyət göstərməlidir. Əgər fəaliyyət geniş olarsa, uğurlar da kifayət qədər böyük olar. Dünya erməniləri Azərbaycanın 44 günlük Vətən müharibəsində qələbəsini həzm edə bilmirlər. Eyni zamanda qardaş Türkiyənin Azərbaycana siyasi və mənəvi dəstəyi erməni lobbisini kəskin şəkildə aqressivləşdirib. Amerika Erməniləri Milli Komitəsinin (ANCA) idarəçiliyi ilə dünya erməniləri, xüsusən ABŞ-dəki erməni lobbisi anti-Azərbaycan və anti-Türkiyə fəaliyyətini planlı şəkildə davam edirlər".

**F.Hüseynzadə vurğulayıb ki, informasiya müharibəsi sonsuzdur. İldənilə bu müharibədə yeni-yeni trendlər meydana çıxır:** "Biz bu trendlərin önündə olmalıyıq. Erməni və ermənipərəst qüvvələr davamlı olaraq beynəlxalq sosial şəbəkə və media platformalarında Azərbaycan haqqında neqativ yazılarla çıxış edir, ölkəmizə qarşı çirkin kampaniya aparırlar. Xüsusən Vətən müharibəsindən sonra onlar ağlagəlməz şəkildə kəskin anti-Azərbaycan və anti-Türkiyə prioritetləri ilə çıxış edirlər. Erməni lobbi maşını artıq Azərbaycan və Türkiyəyə deyil, türk dünyasına qarşı mübarizəyə qalxıb. Onların hədəfi bir millət və iki dövlətin diasporunun xaricdə nüfuzunu gözdən salmaq, ümumiyyətlə, türk xalqlarının birliyini zədələməkdir".

**Fuad Hüseynzadənin fikrincə, bütün bunlara qarşı ənənəvi diaspor fəaliyyətləri, xüsusən tədbirçilik artıq istənilən nəticə vermir:** "Biz, ümumiyyətlə, başqalarına cavab vermək və addımları ilə ayaqlaşmağa köklənmiş fəaliyyətlərdən qaçmalıyıq. Uğur qazanmaq, real nəticə əldə etmək üçün yenilikçiliyə ehtiyacımız var. Azərbaycan həqiqətlərinin təbliğində yeni forma və metodların tətbiqi diaspor quruculuğu işini də keyfiyyətcə təkmilləşdirir. Fikrimizcə, xalqımızın tarixi, xüsusən Qarabağ həqiqətləri ilə bağlı məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün yeni mexanizmlərdən, dünyanın qəbul edəcəyi, ictimai həyata təsir edəcək taktikalardan istifadə etməliyik. Bunun üçün dünya azərbaycanlıları, eləcə də xaricdəki gənclər arasında iki və çoxtərəfli əməkdaşlıq qurulmalı, təcrübə mübadiləsi aparılmalı, azərbaycanlıların intellektual potensialı ümummilli mənafelər naminə səfərbər edilməlidir".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Azərbaycanın dərman bazarında biabırçı vəziyyətdir

## Texniki şərtlərə cavab verməyən dərman preparatları apteklərdə satılılır



Adil Qeybulla həkim məsləhəti olmadan aptekdən öskürək əleyhinə hər hansı bir sirop alıb uşağa içirtməyi yolverilməz sayır



**Keyfiyyətsiz öskürək dərmanı dünyanın üç ölkəsində 300-ə yaxın insanın ölümünə səbəb olub. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, son 4 ayda tərkibində zəhərli maddələr - dietilen qlikol və etilen qlikol olan uşaq öskürək siropları ən azı 7 ölkədə reseptsiz satılıb.**

Qurbanların əksəriyyəti beş yaşından kiçik uşaqlardır. Faciə ilə əlaqədar ÜST üç ölkəyə - Qambiya, İndoneziya və Özbəkistana qlobal sağlamlıq xəbərdarlığı edib.

Təşkilat təchizat zəncirində maraqlı tərəfləri təcili tədbirlər görməyə çağırıb.

Xatırladaq ki, bir müddət əvvəl Səmərqənddə 18 uşaq kəskin respirator infeksiyalara qarşı dərman preparatı - etilen qlikol aşkarlandığı üçün dünyasını dəyişib. ÜST bütün 194 üzv ölkəyə xəbərdarlıq göndərərək təhlükəli dərmanların apteklərdən çıxarılmasını tələb edib.

**Tibb elmləri doktoru, professor Adil Qeybulla "Şərq"ə açıqlamasında bildirib ki, etilen qlikoldan daha çox avtomobil sənayesində antifriz kimi istifadə olunur. Bu preparatlardan dərman əlavəsi kimi istifadənin qadağan olduğunu vurğulayan professor deyib ki, dərman əlavələri müalicə əhəmiyyətli deyil. Dərmanlara dad və rəng vermək, onu stabilləşdirmək üçün istifadə olunur:** "Rəsmi məlumata görə, bizdə etilen qlikol tərkibli preparatlar qeydiyyatdan keçməyib. Amma Azərbaycanın dərman bazarında biabırçı vəziyyət hökm sürdüyü üçün texniki şərtlərə cavab verməyən dərman preparatlarının apteklərdə satılması istisna deyil. Mütləq bu istiqamətdə araşdırmalar aparılmalı və ölkədə satılan öskürək əleyhinə siropların tərkibi yoxlanılmalıdır. Hər hansı bir siropun tərkibində etilen qlikolun aşkarlanması cinayət məsuliyyəti yaradır. Dərman təhlükəsizliyi konsepsiyası milli təhlükəsizlik konsepsiyasının tərkib hissəsi kimi qəbul edilməli və məsələ birbaşa dövlətin nəzarətində olmalıdır. Dərmanlar ölkəmizə kommersiya şirkətləri tərəfindən idxal edilsə də, dövlət onlardan ciddi məsuliyyət tələb etməlidir. Azərbaycanda istifadəsinə icazə verilən dərman preparatlarının hər birinin istehsal edildiyi ölkə, firması, tərkibi mütləq şəkildə qeyd olunmalıdır".

**A.Qeybulla həmçinin həkim məsləhəti olmadan aptekdən öskürək əleyhinə hər hansı bir sirop alıb uşağa içirtməyin yolverilməz olduğunu xatırladıb:** "İlk növbədə öskürəyin yaranma səbəbini tapıb ona uyğun müalicə yazılmalıdır. Xüsusən də öskürək əleyhinə nəzərdə tutulmuş siropları uşaqlara verməzdən öncə mütləq həkimlə məsləhət edilməlidir".

**Şəymən**



# İslama qarşı hörmətsizlik ilk dəfə baş vermir

## Özü də bütün Avropanın gözü qarşısında yaşanır

**Qafqaz Müsəlmanları İdarəsi İsveçdə "Qurani-Kərim"in yandırılması ilə bağlı bəyanat yayıb. Qeyd olunub ki, islam dininə, onun mübarək peyğəmbərinə, "Qurani-Kərim"ə, bütün müsəlmanlara qarşı törədilmiş həqarət aktları birmənalı olaraq nifrətə çağırışdır. İnsanların əqidəsinə və ləyaqətinə qarşı törədilən mənəvi cinayətdir.**

Bildirilib ki, insan hüquqlarına, ləyaqətinə, millətlər və dinlər arasında qarşılıqlı ehtirama əsaslanan ədalətli, sülhsevər cəmiyyətlərin qurulması yolunda səylər göstərildiyi bir zamanda dünyada artmaqda olan islamafobiya təzahürləri hədsiz narahatlığa və etiraza səbəb olur. Belə halların özünü demokratiya carçısı, "söz azadlığı"nın beşiyi kimi qələmə verən bəzi Avropa ölkələrində cərəyan etməsi, üstəlik, bilavasitə dövlət qurumları tərəfindən izn verilərək şərait yaradılması olduqca üzücüdür. QMİ iki milyarda yaxın ardıcılı olan islam dinini hədəf alan bu təhqir aktını qətiyyətlə pislədiyini bəyan edib: "Dini zəmində qarşıdurmaya təşviq edən belə çağırış, təcavüz və zorakılığa təhrik edən bu cür əməllər bəşəri təhlükəyə çevrilməkdədir. Dindən siyasi məqsədlər üçün sui-istifadə halları, ksenofobiya təzahürləri cəmiyyətlərin və dövlətlərin daxili sabitliyini pozmağa, qarşıdurma və nifaq yaratmağa xidmət edir. Söz azadlığı heç də mənəvi hisslərə toxunmaq, nifrətə çağırışlara təhrik etmək deyil. Əksinə, insanları mənəviyyata dəvət etmək olmalıdır. Dünya hamımızın ümumi evidir və bu evdə əmin-amanlığı qorumaq hər birimizin vəzifəsi və borcudur".

**Millət vəkili Ceyhun Məmmədov bildirib ki, "Qurani-Kərim"in yandırılması islamafobiyanın növbəti təzahürüdür. Deputatın sözlərinə görə, Qərbdə "Quran"ın yandırılması, ona hörmətsiz münasibət ilk dəfə baş vermir:** "Bu hadisə artıq dəfələrlə təkrarlanır. Özü də bütün Avropanın gözü qarşısında yaşanır. Son hadisəyə də polis heç bir reaksiya vermədi. İllər öncə Məhəmməd Peyğəmbərin karikaturasının çəkilməsinə də Qərbdə ciddi reakisya verilməmişdi. Bu məsələnin insan hüquq və azadlıqları ilə əlaqələndirilməsinə gəldikdə isə bu, absurd və qəbuledilməzdir. Üzrü qəbahətindən daha böyükdür. Bu əməli törədənlər bu hörmətsizliyin hansı qarşıdurmalara gətirə biləcəyini nəzərə almalıdırlar. Tarixdə ən ağır, ən faciəvi müharibələr dini zəmində olub. Onlar bilməlidirlər ki, bu əməlləri ilə həm də dinlərarası ədavəti qızışdırmış olurlar. Bütün bunlar onu göstərir ki, Qərbdə artan islamafobiyanın qarşısı qətiyyətlə alınmalıdır. Belə məsələlərə yalnız müsəlmanlar deyil, digər dinlərin liderləri, tanınmış siyasətçi və ictimai xadimlər də mütləq reaksiya verməlidirlər".

Parlament üzvü qeyd edib ki, tarixdə müsəlmanların digər dinlərin müqəddəs kitablarına hörmətsiz yanaşması ilə bağlı heç bir fakt yoxdur: "Çünki islam müsəlmanlardan digər dinlərə hörmətlə yanaşmağı tələb edir. Burada belə bir sual yaranır. Müsəlmanların digər dinlərin müqəddəs kitablarını yandırması həmin dinlərin daşıyıcılarına xoş gələrdimi? Əlbəttə yox. Ona görə bu məsələdə siyasi və dini mənsubiyyətindən asılı olmayaraq, hər kəsin diqqətli olması çox önəmlidir.

Siyasi və dini mənsubiyyətindən asılı olmayaraq, hamı digər dinlərin və xalqların dəyərlərinə hörmətlə yanaşmağı bacarmalıdır. Əks halda, zamanla dünyada dini müstəvidə qarşıdurma və dözümsüzlük halları daha da artacaq. Bu isə əlavə gərginlik ocaqları yaradacaq".

**İsmayıl Qocayev**

# Kərə yağını kəsəndə parçalanıb tökülməlidir

## Trans yağlar insan səhhətinə həddindən artıq ziyandır



**Dünyada 5 milyard insan ürək xəstəliyi və ölüm riskini artıran trans yağlara qarşı müdafiəsizdir. Hər il dünyada 500 min insan bu yağlar səbəbindən yaranan ürək-damar xəstəlikləri nəticəsində vəfat edir.**

Bu barədə Ümumdünya Səhiyyə Təşkilatının hesabatında qeyd olunub.

Hesabata görə, trans yağların istehlakı nəticəsində ürək-damar xəstəliklərindən ən çox ölüm hallarının qeydə alındığı 16 ölkədən 9-da yaxşı profilaktika siyasəti həyata keçirilmir. Bu ölkələrə Avstraliya, Azərbaycan, Butan, Ekvador, Misir, İran, Nepal, Pakistan və Cənubi Koreya daxildir.

Trans yağları aradan qaldırmaq üçün ən yaxşı siyasət Amerika və Avropanın yüksək gəlirli ölkələrində həyata keçirilir. Argentina, Banqladeş, Hindistan, Paraqvay, Filippin və Ukrayna kimi orta gəlirli ölkələr də bu siyasəti mənimsəyir.

Həmçinin bu il trans yağların aradan qaldırılması üçün ən yaxşı siyasətin Meksika, Nigeriya və Şri-Lankada həyata keçiriləcəyi gözlənilir.

Qeyd edək ki, ÜST 2018-ci ildə trans yağların qlobal olaraq aradan qaldırılması barədə çağırış edib. Təşkilatın baş direktoru Tedros Adhanom Qebreyesus bu yağların heç bir faydası olmadığını, əksinə, səhiyyə sistemləri üçün böyük xərclərə səbəb olduğunu diqqətə çatdırıb.

Mütəxəssislərin fikrincə, trans yağların ən qorxunc xarakteri öz təsirini birbaşa və sürətlə deyil, yavaş-yavaş, dolayı yollarla göstərməyindədir.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov Azərbaycana idxal olunan yağların tərkibinə nəzarətin gücləndirilməsinin vacib olduğunu deyib. Onun sözlərinə görə, trans yağ təbii yağ növü deyil. İnsan sağlamlığına zərərli olan trans yağ, "hidrogenləşmə" deyilən bir proseslə bitki yağına "hidrogen" qatılaraq əldə edilən yağdır:** "Yağların tərkibinin araşdırılması çox önəmlidir. Demək olar ki, hər gün Azad İstehlakçılar Birliyinə kərə yağlarının tərkibi ilə bağlı şikayət daxil olur. Hətta ən bahalı yağlardan olan Yeni Zellandiyadan gətirilən kərə yağları ilə bağlı da şikayətlər alırıq. Mağazalarda bitki spredi olan yağlar satılır ki, onların üzərinə inək şəkli vurulur. İstehlakçı elə bilir ki, bu, kərə yağıdır. Ancaq bitki spredi olduğu açıq-aydın şəkildə yazılmır. Bazarlarda ciddi yoxlama aparılmalı, cəmiyyət də ona dəstək verməlidir. İstehlakçılar yaxınlaşıb eyni temperaturda olan yağları sıxa bilərlər, hansı bərkdirsə, o, kərə yağına daha yaxındır. Kərə yağını kəsəndə, o, parçalanıb tökülməlidir. Trans yağlar insan səhhətinə həddindən artıq ziyandır və bunun üçün də ciddi laboratoriyalaşma getməlidir".

> "Hətta ən bahalı yağlardan olan Yeni Zellandiyadan gətirilən kərə yağları ilə bağlı da şikayətlər alırıq"

*AİB sədrinin sözlərinə görə, hidrogen əlavə edilmiş yağlar pis xolesterolu artırır və infarkt, insult, damar tıxanması kimi bir çox ciddi xəstəliklərə səbəb olur.*

Orqanizmin ürək-damar, sinir, immun, cinsiyyət sistemlərinə, mübadilə proseslərinə çox mənfi təsir edir, şəkərli diabetin və hətta onkoloji xəstəliklərin inkişafının riskini artırır. Trans-piylər orqanizmə hüceyrə səviyyəsində mənfi təsir edir, həzm sisteminin fəaliyyətini pozur, qanda xolesterinin səviyyəsini qaldırır. Trans-piylərin daimi qəbulu artıq çəkinin yığılmasına səbəb olur.

**Şəymən**

# Biznesə yaşıl işıq

## Sahibkarlar rahat nəfəs ala bilər

**Borclu vergi ödəyicilərinin hesab açmaq üçün qanunla qoyulan məhdudiyyət aradan qaldırılıb. Bu aydan etibarən borclu vergi ödəyiciləri də bankda hesab aça biləcəklər. Bu qərar Vergi Məcəlləsinə edilən dəyişikliklərdə öz əksini tapıb. Dəyişikliklər bu ilin yanvar ayından qüvvəyə minib.**

Millət vəkili, iqtisadçı-ekspert Vüqar Bayramovun sözlərinə görə, bu məhdudiyyətin aradan qaldırılması vergi borcu olanların iqtisadi fəaliyyətinin dəstəklənməsi, digər tərəfdən onlar üçün müəyyənləşdirilən məhdudiyyətlərin yumşaldılması məqsədi daşıyır: "Çünki bir sıra hallarda vergi borcu olanlar hesab açıb iş qura bilmədikləri üçün həmin borcu qaytarmaqda da çətinlik çəkirdilər".

"Yeni dəyişiklik həm vergi borclarının ödənilməsinə, həm də biznes mühitinə müsbət təsir göstərəcək. Bu baxımdan bu dəyişiklik mütərəqqi addımdır".

**Vergi məsələləri üzrə ekspert Anar Bayramov isə "Şərq"ə açıqlamasında Vergi Məcəlləsində edilmiş bu dəyişikliyin vergi ödəyicilərinin inzibatçılıq yükünün azaldılması ilə bağlı olduğunu deyib:**

"Dəyişikliyə qədərki qanunvericiliyə əsasən, vergi ödəyicisinin bir qəpik belə borcu olsaydı, həmin şəxs yeni hesab açmaq üçün əvvəlcə həmin borcu ödəməli idi. Vergi ödəyicisinin dövlət büdcəsinə vergi borcu olmadığı halda isə hesabın açılması üçün vergi orqanı tərəfindən banka şəhadətnamə-dublikat göndərilir.

Vergi ödəyicisinin dövlət büdcəsinə vergi borcu varsa, hesabın açılması üçün vergi orqanı tərəfindən banka şəhadətnamə-dublikatını göndərmək mümkün olmur. Bu zaman da vergi ödəyicisi vaxt itkisinə məruz qalır. Yəni vergi ödəyicisi dövlət büdcəsinə borcunu ödədikdən 2 gün sonra həmin borc sıfırlanır. Sonra isə vergi orqanı yenidən banka şəhadətnamə-dublikat göndərir və bu sənədə də iki iş günü ərzində bankdan cavab gəlirdi. Halbuki bəzən vergi ödəyiciləri bankdan təcili kredit götürməli olur, yaxud da təcili olaraq kredit götürüb avro valyutasına konvertasiya edərək hansısa bir xarici ölkəyə köçürmə etmək istəyir. Bu zaman dövlət büdcəsinə borcu olduğu 4-5 gün gözləməli olurdu. Bu vaxta qədər də avronun məzənnəsində ciddi dəyişikliklər müşahidə edilirdi. Bütün bunları real təcrübədən deyirəm. Bu baxımdan Vergilər Məcəlləsinə edilən müvafiq dəyişikliklərin əhəmiyyətli olduğunu düşünürəm.



*Borclu vergi ödəyicilərinə hesab açmaq üçün qoyulan məhdudiyyət aradan qaldırılıb*

Yeni dəyişikliyə əsasən, bundan sonra isə borclu vergi ödəyicilərinə hesab açmaq üçün qoyulan məhdudiyyət aradan qaldırılıb, vergi ödəyicisinin bank əməliyyatları aparan şəxslərdə hesab açmaq üçün vergi orqanından şəhadətnamə-dublikat alması tələbi ləğv edilib. Beləliklə, bundan sonra hesablar vergi ödəyicisinin birbaşa bank əməliyyatları aparan şəxslərə müraciəti əsasında açılacaq".

**A.Bayramov deyib ki, dəyişikliklərə əsasən, vergi ödəyicisinə açılmış hesabların vergi orqanında qeydiyyata alınması üçün bank əməliyyatları aparan şəxslər tərəfindən hesab açıldığı tarixdən 1 iş günü müddətində vergi orqanına elektron qaydada məlumat göndərilir:** "Açılmış hesab daxil olmuş məlumat əsasında vergi orqanı tərəfindən real vaxt rejimində avtomatlaşdırılmış qaydada qeydiyyata alınır və bu barədə bank əməliyyatları aparan şəxslərə qeydiyyat bildirişi göndərilir. Vergi ödəyicisinin borcu olduğu və borcun ödəniş müddətinin bitdiyi halda, vergi orqanı tərəfindən hesabın qeydiyyata alınmasına dair bildirişlə yanaşı, eyni gündə həmin hesab üzrə sərəncam da göndərilir. Amma bir məsələ var ki, dövlət büdcəsinə borcu olan vergi ödəyicisinin adına yeni hesab açılsa da orada heç bir əməliyyat apara bilməz. Yox əgər şəxsin hər hansı banka borcu varsa, bu zaman bank bildiriş göndərir ki, şəxsin hesabında yalnız mədaxail əməliyyatları icra oluna bilər. Məxaric isə mümkün deyil. Ancaq qanunvericiliyin icazə verdiyi müəyyən ödənişləri icra edə bilər. Qanuna görə, vergi ödəyicisi dövlət büdcəsindən əvvəl aliment borcunu və insan sağlamlığına vurulan xəsarətə görə ödənilməli olan məbləği, əməkhaqqını məxaric edə bilər. Qalan ödənişlərdən əvvəl mütləq dövlətə olan borc ödənilməlidir. Göründüyü kimi, mövcud inzibatçılığın sadələşdirilməsi və prosedurların azaldılması məqsədilə qüvvədə olan qanunvericiliyə dəyişikliklər edilməklə yeni mexanizmin tətbiqi nəzərdə tutulur".

**Şəymən**

# Burada doğulmaq və ölmək qadağandır!

## Cəmi 3 min insanın yaşadığı şəhərin sirri

(Əvvəli səh.8)



**Bir dövrü məhv edən ölümcül xəstəlik olan ispan qripi o illərdə Svalbardda yaşayanları da yoluxdurmuşdu. Kiçik adada xəstələnən və həyatını itirən insanların cəsədləri yaşayış məntəqələrində basdırılırdı. Lakin qrip təsirini itirəndən illər sonra Svalbardın mərkəzi sayılan Longyearbyen şəhərində yenidən ispan qripi müşahidə olunub.**

Səlahiyyətlilərə görə, turistlərin çox olmadığı bu bölgədə təsirini itirmiş virusun yenidən görünməsi mümkün deyildi. Hadisəni təqib edən səlahiyyətlilər, nəhayət, problemin mənbəyini tapıblar. Aparılan araşdırmalara görə, çox soyuq və demək olar ki, buzlaqlarla örtülmüş bu bölgədə torpaq altında basdırılan insanların cəsədləri qurumayıb və onların bədənlərindəki viruslar hələ də aktiv şəkildə yaşayır. Bu vəziyyətin şəhər əhalisi üçün böyük təhlükə olduğunu görən səlahiyyətlilər məzarları uzaq ərazilərə köçürüblər.

Həmin gündən adada xəstələnmək və ölmək qadağan edildi. Yaşlılar və ölümcül xəstəliyi olanlar adadan çıxarılmağa başlandı. Buna görə Norveçin cənubuna göndərildi ki, kimsə özünü çox xəstə hiss edərsə, daha yaxşı müalicə olunsun və ya öləcəksə, rahatlıqla dəfn olunsun.

Longyearbyendə təsadüfən həyatını itirənlərin cəsədləri dəfn edilmək üçün kremasiya edilməlidir. Lakin bu kremasiya dövlət icazəsi olmadan həyata keçirilə bilməz.

Longyearbyendə yaşamaq üçün ölümdən sonra ikinci qayda doğumdur. Ölmək caiz olmadığı kimi, şəhərdə doğum da olmaz. Çünki bu qəsəbədə doğuş üçün sağlam mühitin olmaması mümkün fəsadla doğum edən şəxsin ölümünə səbəb ola bilər. Əslində ölməyin haram olduğu yerdə doğum edərkən ölüm də problem yaradacağı üçün ölümə aparan istənilən fəaliyyətin qadağan olduğunu söyləmək olar. Longyearbyendə hamilə qalan qadınlar, xəstə olanlar kimi, Norveçin başqa şəhərlərinə göndərilir və orada doğuş üçün dəstək verilir.

Longyearbyendə doğum və ölüm kimi qadağan edilən başqa bir təəccüblü qadağa, pişiklərin yaşamasına icazə verilməməsidir. Çünki pişiklər qəsəbədəki quşları ovlayaraq nəsli kəsilib.

**Turan**




# Hələ bu harasıdır, yoxlamalar davam edəcək

## Naxçıvanda yalnız 3 məmur 500 milyon manat mənimsəyib

**Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində yoxlamalar başlayıb.**

Yoxlamalar Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin vəzifəli şəxsləri tərəfindən aparılır.

Qurumun mətbuat xidməti xəbəri təsdiqləyiblər.

Bildirilib ki, plana uyğun olaraq kompleks yoxlamalar aparılır və bu barədə mətbuata yaxın günlərdə geniş məlumat veriləcək.

**Məsələyə münasibət bildirən"TNS" İnformasiya Agentliyinin baş redaktoru, naxçıvanlı jurnalist Tural Səfərov "Şərq"ə bildirib ki, bu günlərdə Hesablama Palatası Naxçıvanda yoxlamalara başlayıb:**

"Vasif Talıbovun rəhbərliyi dövründə Naxçıvana dotasiya kimi təxminən 20 milyard manata yaxın vəsait ayrılıb. Amma aparılan araşdırmalar göstərir ki, bu vəsaitin böyük bir hissəsi mənimsənilib. Təkcə Naxçıvandakı üç məmurun mənimsəmə faktı 500 milyon manata yaxındır. Burada həbs olunan keçmiş maliyyə naziri, Şəhərsalma üzrə Arxitektura Komitəsinin sədri və keçmiş Gömrük Komitəsinin sabiq şöbə müdirindən söhbət gedir. Faktlar onu göstərir ki, Naxçıvanda ayrılan büdcə vəsaitləri yeyintiyə məruz qalıb. Buna görə də yoxlamalar təbiidir. Hətta yoxlamalar dərinləşdikcə daha da ciddi faktların ortaya çıxacağı istisna edilmir. Əsas məqsəd isə korrupsiya yolu ilə dövlətdən mənimsənilən pulların yenidən büdcəyə qaytarılmasıdır. Faktlar ortaya çıxdıqca isə günahkarlar layiqli şəkildə cəzalandırılacaq".

**Nihat Müzəffər**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330
Tirajı: 1550 Sifariş: 225



## Yanvarın 26-da Yerin yaxınlığından asteroid keçəcək

**Yanvarın 26-da Yerin yaxınlığından diametri 5-6 metr olan asteroid keçəcək.**

Bu barədə Azərbaycan Milli Elmlər Akademiyası N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasından məlumat verilib.

Bildirilib ki, müşahidə ediləcək göy cisminə müvəqqəti olaraq "2023 BU" adı verilib.

2023 BU asteroidi yüksək parlaqlığa malikdir. Onu hətta həvəskar teleskoplarla da müşahidə etmək mümkün olacaq. Lakin asteroidi yalnız Yer kürəsinin cənub yarımkürəsinin sakinləri görə biləcəklər.

Qeyd edək ki, bu asteroid Yer üçün təhlükəli deyil, çünki o, planetdən bir neçə min kilometr uzaqlıqdan keçəcək. Daha dəqiq desək, Yerin mərkəzindən 6,200 mildən (10,000 km) az məsafədən keçəcək və Yerin orbitində fırlanan geostasionar peyklərin təxminən dörddə biri məsafəsində olacaq. Bu da onu deməyə əsas verir ki, 2023 BU asteroidi Yerlə son dərəcə yaxın, amma təhlükəsiz şəkildə keçəcəkdir. Ümumilikdə isə, əsasən diametri 150 metrdən böyük olan göy cisimləri planetimiz üçün təhlükəli hesab edilir.

Asteroidin hərəkətini izləmək üçün Virtual Teleskop keçidindən istifadə edə bilərsiniz. Keçid üzərindən canlı yayım 26 yanvar saat 23:15-də başlayacaqdır.

## Antarktidadan 150 metr qalınlığında aysberq qopub



**Antarktidadan nəhəng buz parçası qopub.**

APA xəbər verir ki, bu barədə britaniyalı alimlər bildiriblər.

Onların sözlərinə görə, Antarktidadan 1550 kvadrat kilometr sahəsi olan və 150 metr qalınlığında nəhəng aysberq qopub.

## Nyu-Yorkda avtomobil səsinə qarşı mübarizə güclənir



**Nyu-York şəhərində avtomobil və motosikletlərin səs səviyyəsini ölçən yol hərəkəti kameralarının tətbiqini genişləndirmək planlaşdırılır.**

Azərtac ABŞ mediasına istinadla xəbər verir ki, yeni sistemin işlədiyi bir il ərzində yol verilən səs normalarını aşan 71 sürücü cərimələnib. Yol kənarlarındakı kameralarda quraşdırılmış səsölçən cihazlar qaydaları pozan avtomobillərin dövlət nömrə nişanlarını qeydə alır. Avtomobil sahibləri birinci səs-küy pozuntusuna görə 800 dollar, təkrar pozuntuya görə isə 2625 dollar cərimələnir.

Avtomobil və motosikletlərin aşırı səsi Nyu-York üçün problemə çevrilib. Şəhərin hakimiyyət orqanları hesab edir ki, yeni sistemin tətbiqi avtomobillərdə səsboğucuların qanunsuz modifikasiyasına qarşı mübarizə işinə kömək göstərəcək.

## Dəvənin kinli olduğunu bilmirdi

### Gözətçiyə hücum edərək onu ayaqları altında əzib



**Rusiyada dəvə ovçuluq bazasının gözətçisini ayaqları altında tapdalayaraq öldürüb.**

Oxu.az xəbər verir ki, facİə Omsk vilayətində yerli ov bazasının dəvələri yetişdirdiyi ərazidə baş verib.

Hadisə baş verən gün kişi bütün heyvanları volyerə aparmalı idi, ancaq dəvələrdən biri müqavimət göstərməyə başlayıb. Kadrlardan kişinin onun üzündən yumruqla vurduğu görünür. Qəzəblənən heyvan gözətçiyə hücum edərək onu ayaqları altında əzib.

51 yaşlı kişi ağır travmalarla xəstəxanaya yerləşdirilib. Ancaq onun həyatını xilas etmək mümkün olmayıb, o, reanimasiyada keçinib.

## Hande Erçelin məşhur biznesmenlə görüntüsü yayıldı



**Həmkarı Kerem Bürsindən ayrıldıqdan sonra Kaan Yıldırımla birlikdə yaşayan türkiyəli məşhur aktrisa Hande Erçelin biznesmen Hakan Sabancı ilə sevgili olduğu iddia edilib.**

Oxu.az xəbər verir ki, xəbərə əsəbiləşən aktrisa bunu təkzib edib və həyatında heç kimin olmadığını bildirib.

İki aydır yan-yana görünməməyə çalışan cütlüyün nəhayət ki, birgə ilk fotosu yayılıb.

Sabancının Emirqandakı evində təşkil olunan ad günü ziyafətinə qatılan məşhurlar bu dəfə müxbirlərin gözündən yayına bilməyiblər.

Hər dəfə Sabancı ilə münasibəti barədə söhbətlərin yalan olduğunu deyən Erçelin bu dəfə necə açıqlama verəcəyi isə maraq doğurur.



# Həkim əməliyyatı unutdu

## Uşaq 5 saat əməliyyat masasında qaldı

**Badamcıqlarının əməliyyatla alınmasına qərar verilən 3 yaş yarımlıq uşağın başına gələnlər insanı heyrətə salır. "NTV.com.tr"nin xəbərinə görə, Yalova əyalətində badamcıqlar, adenoid (boğazın arxa divarındakı ət), qulaqlara eşitməni asanlaşdırmaq üçün boru taxılması əməliyyatına girən 3 yaş yarımlıq Cahangirin 10 gün sonra səhhətində problemlər yaranıb.**

Atası uşağı xəstəxanaya təkrar gətirdiyində məlum olub ki, badamcıqlar yerindədir, əməliyyat zamanı götürülməyib. Halbuki əməliyyat 5 saat çəkib. 5 saatlıq əməliyyat zamanı həkim bəs nə işlə məşğul olub? Uşağın atası Neyfəl Tosun həkimdən şikayətçi olub. Həkim isə iddiaları rədd edərək badamcıqlar iltihablı olduğundan əməliyyat etmədiyini bildirib. N.Tosun bildirib ki, ailənin 3-cü övladı olan Əbdülhəmid Cahangir yaş yarımlıq olanda badamcıqlarında iltihab aşkarlanıb. Körpəyə müalicə təyin edilib, lakin il yarım sürən müalicənin də bir nəticəsi olmayıb. Uşağın boğazında əmələ gəlmiş adenoid böyüyüb, qulağında infeksiya əmələ gəlib, eşitmə problemi yaranıb, rahat nəfəs ala, udquna bilməyib. Uşağın burun-boğazındakı problemlərin əməliyyatla aradan qaldırılmasına razılıq verən valideynləri onu özəl klinikaya aparıb. Həkim körpəni müayinə edərkən "təcili əməliyyat olunmalıdır" deyib. Əməliyyat 5 saat çəkib. 10 gün sonra halı pisləşən körpəni xəstəxanaya gətiriblər. Müayinə edən həkim "badamcıqlar iltihablaşıb" dedikdə, N.Tosun "necə? Uşaq 10 gün əvvəl əməliyyat edilib", söyləyib. Həkim isə "xeyr, badamcıqlar götürülməyib" dedikdə məsələ aydınlaşıb. Ata körpəni "əməliyyat edən" həkimə aparıb. Həkim körpəni müayinə etdikdə "yanlışımız olub, badamcıqları götürməmişik" deyib. Həkimin etirafından dəhşətə gələn ata məhkəməyə müraciət edib. Lakin həkim bu dəfə unutqanlığını rədd edərək "badamcıqlarda iltihab vardı deyə əməliyyat etmədik, çünki bu, qanaxma təhlükəsi yarada bilərdi" açıqlamasını verib. Lakin əməliyyat sonrası tərtib edilmiş epikrizdə "badamcıqların alınması" da qeyd edilib. Körpənin valideynləri bunu əsas tutaraq xəstəxana və həkim barəsində cinayət işi açılmasını tələb edirlər.

**Məlahət**





# Burada doğulmaq və ölmək qadağandır!

## Cəmi 3 min insanın yaşadığı şəhərin sirri



**Hazırda Norveçin Svalbard arxipelaqının Longyearbyen şəhərində 3000-ə yaxın insan yaşayır. Coğrafi şəraitin gətirdiyi çətinliklərdən başqa, bu şəhərin sakinləri dünyada misli görünməmiş qaydalara riayət etmək məcburiyyətindədirlər, səbəbi maraqlıdır.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Norveçin Svalbard arxipelaqı sərt hava şəraitinə görə bir çox insan üçün sirli bir ərazidir. Dünyada çox az adamın ziyarət etdiyi bu bölgənin hər guşəsi kino kadrlarına bənzəmir. İlin çox hissəsini qar altında keçirən Svalbard bölgəsini dünyanın ən çətin bölgələrindən birinə çevirən təkcə iqlim şəraiti deyil. Svalbardın qərargahı olan Longyearbyendə tətbiq edilən bəzi qaydalar eşidənləri heyrətə gətirir.

1900-cü illərin əvvəllərində Longyearbyendə o dövrdə Skandinaviyanın ən böyük kömür mədənlərindən birinin təməl daşı qoyulub. Mədənin yaxınlığında işçilər üçün qəsəbə də salınmışdı. 2000-ci illərdə kömür mədəni tamamilə tükənsə də, orada yaşayan insanlar onilliklər ərzində şəhərlərini tərk etmək istəmirdilər. Lakin sərt hava şəraiti həmişə şəhər üçün əsas problem olub. 120 gün günəşin parlamadığı bu qəsəbədə insanlara yaşamaq, hətta ölmək üçün bəzi qaydalar qoyurlar.

Təqvimlər 1950-ci illəri göstərirdi. Əsasən mədənçilərin yaşadığı Longyearbyen şəhərində ölmək rəsmən qadağandır. Bu qadağa əvvəlcə çox qəribə səslənə bilər. Amma qanunun əsaslandırılması kifayət qədər məntiqlidir. Əslində bu qaydanın qüvvəyə minməsinin səbəbi 1918-1920-ci illər arasında demək olar ki, bütün dünyanı əhatə edən ispan qripinə əsaslanır.

**Turan**

(Davamı səh.7)

# Min illər əvvəl itlər necə əhliləşdirilib?

## Alimlər buna səbəb olan amili müəyyənləşdiriblər



**Budapeşt Universitetinin mütəxəssislər qrupu min illər əvvəl itlərin əhliləşdirilməsinə səbəb olan faktoru müəyyən ediblər.**

Azərtac xəbər verir ki, "Scientific Reports" jurnalında dərc olunan işin nəticələrinə görə, buna səbəb insanla vizual təmas olub.

Əvvəlki araşdırmalar göstərdi ki, primatlar və məməlilərin bəzi növləri insanlar və digər növlərlə ünsiyyət qurmaq və əlaqə yaratmaq üçün vizual işarələrdən istifadə edə bilir. Baxmayaraq ki, əvvəllər bunun ev heyvanları ilə məhdudlaşdığı düşünülürdü.

İndi alimlər itlərin və əhliləşdirilən donuzların davranışlarını izləyiblər. Yeni bir təcrübədə şirniyyatlar subyektlərdən əlçatmaz bir hündürlükdə gizlədilib, sonra isə sahiblərinin yanında və yoxluğunda müşahidə edilib. Ehtimal olunurdu ki, subyektlər ev sahibi ilə aktiv şəkildə qarşılıqlı əlaqədə olacaqlar və onu gizli yeməyə çalışacaqlar.

Təhlil göstərdi ki, itlər və donuzlar tək olanda eyni cür davranırdılar, lakin insan peyda olanda itlər insanla ünsiyyət qurmağa, onun diqqətini yeməyə cəmləməyə başladı, bunu özbaşına əldə etməyə çalışan donuzlardan fərqli olaraq.

Əldə edilən nəticələr, itlərin başqaları ilə ünsiyyətdə vizual siqnallardan istifadə etmək bacarığını aydın şəkildə göstərir, donuzlar isə əsasən səslərə və qoxulara diqqət yetirirlər. Tədqiqatçılar qeyd edirlər ki, qohumlarla və insanlarla ünsiyyətdə vizual təması tanımaq və istifadə etmək bacarığı onların əhliləşdirilməsində böyük əhəmiyyət kəsb edirdi.

# Arnold Şvarseneqqer yeni kitab yazır



**Hollivud ulduzu Arnold Şvarseneqqer nöbəti kitabını dərc etməyə hazırlaşır.**

Axşam.az xəbər verir ki, aktyor artıq bununla bağlı müqavilə də imzalayıb.

75 yaşlı Şvarseneqqerin konkret nədən yazacağı hələlik məlum deyil. Lakin bildirilib ki, o, yeni kitabında Hollivud karyerası ilə bağlı xatirələrindən bəhs etməyəcək. Kitab daha çox motivasiya xarakterli olacaq.

*Qeyd edək ki, aktyorun "Bodibildinqin təhsili", "Müasir bədən tərbiyəsi ensiklopediyası" adlı kitabları var.*